

# ABŞ VƏ ÇİN BARIŞA DOĞRU

Donald Tramp və Si Cinpin arasındakı görüş bütün dünyanın diqqət mərkəzindədir. Görüşdə əsas diqqət iki ölkə arasında yaşanan ticarət gərginliyinə və Ukrayna böhranına yönəlib.

ABŞ Prezidenti Çin liderilə görüşünü yüksək qiymətləndirərək, tezliklə imzalana biləcək ticarət razılaşmasına nail olduqlarını bildirib, lakin əlavə məlumat verməyib. "Bu, gözəl görüş idi. O, əla liderdir", - deyə Tramp bildirib. O, fentanil komponentlərinin ABŞ-yə ixracının dayandırılması müqabilində bütün Çin mallarına tarifləri dərhal endirəcəyini bildirib.

Beynəlxalq şərhçi Kon Koflin bildirib ki, bu görüş ABŞ liderinin Ukraynadakı müharibəyə son qoymaq səylərinə yeni təkan verə bilər. Analitikin sözlərinə görə, Rusiyanın hərbi kampaniyası əsasən Çin tərəfindən dəstəklənir və bu, Pekinin Qərbin sanksiyalarına baxmayaraq, böyük həcmdə Rusiya nefti almağa davam etmək istəyi ilə bağlıdır.

SƏHİFƏ 6-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

1 NOYABR ŞƏNBƏ 2025 № 42 (4243) Qiyməti - 60 qəpik www.kaspi.az





## AZƏRBAYCAN ERMƏNİSTANI SÜLHƏ HAZIRLAYIR

Cənubi Qafqazda yaşanan proseslər yenidən dünyanın diqqətini cəlb edib. Azərbaycanın birtərəfli qaydada Ermənistana qarşı tətbiq olunan tranzit embarqosunu ləğv etməsi bölgədə sülh prosesinə yeni nəfəs verib.

SƏHİFƏ 4-də



## TAM NƏZARƏT VƏTƏNDAŞDA OLACAQ

Hazırda vətəndaşın fərdi məlumatlarının istifadəsinə nəzarət mexanizmi əsasən özəl sektorun - banklar, sığorta şirkətləri, mobil operatorlar və digər kommersiya qurumlarının sorğularına şamil olunur.

SƏHİFƏ 13-də



## KİTABLARLA SAĞALMAQ MÜMKÜNDÜRMÜ?

Ədəbiyyat ruhun dilidir. Psixoloji yaraların sağalması üçün bəzən nə dərman, nə də məsləhət yetərli olur. İnsan sadəcə hislərinə güzgü tutulmasını istəyir. Ədəbiyyat da bunu edir – səssiz, lakin çox dərin bir şəkildə.

SƏHİFƏ 14-də




DOĞMA YURD-YUVASINA QOVUŞANLARIN SAYI SÜRƏTLƏ ARTIR

# AZAD OLUNMUŞ TORPAQLARDA YENİ HƏYAT

Qarabağ, Şərqi Zəngəzur yenidən Azərbaycanın dilbər guşələrinə çevrilir. Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına son səfərlərinə həm də bu kontekstdən yanaşmaq lazımdır.

### CƏBRAYIL VƏ ZƏNGİLANDA YENİ AÇILIŞLAR

Prezident İlham Əliyev Horovlu, Məmmədbəyli və Ağalı kəndlərində sakinlərlə görüşdü, onlara mənzillərin açarlarını şəxsən təqdim etdi, arzu və istəklərini insanların dilindən bilavasitə dinlədi. Prezident doğma vətənlərinə qayıdışları münasibətilə sakinləri təbrik etdi.

### DÜNYA ÜÇÜN UNİKAL İNKİŞAF MODELİ

Qarabağdakı quruculuq prosesi bu gün unikal inkişaf modeli kimi qəbul olunur. Bu bərpa prosesi həm də Azərbaycan xalqının yenilməzliyinin və dövlətin gücünün təcəssümüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydançasıdır.

SƏHİFƏ 3-də

"Tələbələri sərt sınaqla üz-üzə qoymaq doğru deyil"

## "MƏNİ SAY DEYİL, DAHA ÇOX SEÇİM PROSESİ NARAHAT EDİR"



Xaricdə təhsil üzrə Dövlət Proqramı Azərbaycanda gənclərin xaricdə ali təhsil imkanlarını genişləndirir. Lakin proqramın tətbiqi, seçim meyarları və şəffaflıq məsələləri tez-tez müzakirə mövzusu olur. Bu mövzuda xaricdə təhsil üzrə ekspert Rizvan Qənbərli ilə söhbətləşdik. O qeyd etdi ki, Azərbaycanın insan kapitalının inkişafına və prioritet ixtisaslar üzrə keyfiyyətli təhsilə çox ehtiyacı var.

SƏHİFƏ 8-9-da



## DİPLOMATLAR CƏBRAYIL VƏ ZƏNGİLANDA

Ölkəmizdə akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Səfərdə 51 ölkə və 12 beynəlxalq təşkilatdan, ümumilikdə 100-dən çox nümayəndə iştirak edib.

SƏHİFƏ 2-də




## KİRAYƏ BAZARINDA YENİ DÖVR

Daşınmaz əmlakını yüksək qiymətə kirayə verənlərin təxminən 70 faizi artıq müqavilə imzalayır. Qeyri-yaşayış obyekti sahibləri ilə də icarə müqavilələri əksər hallarda məsuliyyət və tənzimləmə səbəbi ilə bağlanır.

SƏHİFƏ 12-də



## İKİ ÖLKƏNİN KÖRPÜSÜNƏ ÇEVRİLƏN MÖCÜZƏ

Niaqara şəlaləsi "Disneyland", Notr-Dam kilsəsini və Böyük Çin səddini qabaqlayaraq, dünyada beşinci ən məşhur turistik məkan kimi tanınır. Bu təbiət möcüzəsini seyr etmək planetin hər bir sakininin arzusudur.

SƏHİFƏ 15-də



Vaşinqtonda Mərkəzi Asiya sammiti

SƏHİFƏ 5-də



Bu il azalıb, amma gələcəkdə çoxalacaq

SƏHİFƏ 7-də



Xıdırlı kəndinə növbəti köç

SƏHİFƏ 2-də



Bu sahələr daha çox gəlir gətirəcək

SƏHİFƏ 11-də



Gənc güləşçilərdən uğurlu nəticə

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Milli Məclis yeni qanun qəbul edib

Milli Məclis yeni hazırlanan "Dövlət xidmətləri haqqında" qanun layihəsini son oxunuşda qəbul edib. Layihəyə əsasən, Azərbaycanda Dövlət Xidmətlərinin Elektron Reyestri (DXER) yaradılacaq.

Sənəddə qeyd edilib ki, dövlət xidmətlərinin təminatçıları tərəfindən yeni xidmət müəyyən edən normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən 30 iş günündən gec olmayaraq dövlət xidmətinin reqlamenti DXER-ə daxil edilməsi üçün təqdim edilməlidir. Xidmətlər barədə məlumatlar elektron kabinet üzərindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək göndəriləcək. Layihəyə görə DXER operatoru tərəfindən yeddi iş günü müddətində xidmət təminatçısı tərəfindən göndərilmiş məlumatların tamlığı və düzgünlüyü yoxlanılacaq və bu barədə xidmət təminatçısına elektron formada bildiriş göndəriləcək. Aşkar edilmiş çatışmazlıqlar xidmət təminatçısı tərəfindən aradan qaldırılaraq yeddi iş günü müddətində yenidən DXER-in operatoruna göndərilməlidir. Qanun layihəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.



## Xıdırlı kəndinə növbəti köç

Ağdam rayonunun Xıdırlı kəndinə yeni köçən sakinlərə evlərinin açarları təqdim edilib. "Report" xəbər verir ki, mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Qeyd edək ki, bu mərhələdə kəndə 24 ailədən ibarət 124 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# DİPLOMATLAR CƏBRAYIL VƏ ZƏNGİLANDA



Ölkəmizdə akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Səfərdə 51 ölkə və 12 beynəlxalq təşkilatdan, ümumilikdə 100-dən çox nümayəndə iştirak edib.

Oktyabrın 31-də ölkəmizdə akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Səfərdə 51 ölkə və 12 beynəlxalq təşkilatdan, ümumilikdə 100-dən çox nümayəndə iştirak edib. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə baş tutan səfər zamanı diplomatik korpus nümayəndələri Cəbrayıl və Zəngilan rayonlarında aparılan bərpa və yenidənqurma işləri ilə əyani tanış olublar.

## Zəngəzur dəhlizinin tərkib hissəsi



Cəbrayıl rayonunun Horovlu kəndində onlara işğaldan azad ediləndən sonra yaşayış məntəqəsində aparılmış bərpa-quruculuq işləri və yaradılmış şərait barədə məlumat verilib. Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri oktyabrın 31-də Həkəri çayının Zəngilan rayonu ərazisindən keçən hissəsində yerləşəcək Həkəri dəmir yolu stansiyası ilə də tanış olublar.

Diplomatik korpusun nümayəndələri burada görülən işlər, dəmir yolunun və stansiyanın tikintisi ilə bağlı həyata keçirilmiş və gələcəkdə görüləcək işlər barədə məlumatlandırılıb. Bildirilib ki, bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin (TRIPP) tərkib hissəsi olacaq. Onlar "Böyük Qayıdış" Proqramı çərçivəsində uğurla icra olunan layihələr, habelə regionun strateji əhəmiyyətini artıran Zəngəzur dəhlizi layihəsi barədə məlumat əldə edib, Ağbənd qəsəbəsi ərazisindəki dəmir və avtomobil yolları ilə bağlı görülən işlərlə yerində tanış olublar.

## Diplomatik korpus nümayəndələrinin 20-ci səfəri

Nümayəndə heyəti əsas infrastruktur obyektlərinə, o cümlədən Zəngilan rayonunda "Dost Aqropark" heyvandarlıq kompleksi, Zəngilan şəhərindəki yaşayış kompleksi, məktəb və uşaq bağçası binaları, Zəngilan şəhər məscidinə baxış keçiriblər. Diplomatik korpus nümayəndələrinin səfəri həyata keçirilən işlərin miqyasını və



regionun inkişaf potensialını yaxından görmək, həmçinin işğaldan azad edilmiş ərazilərin davamlı bərpası, sosial-iqtisadi dirçəlişi və reinteqrasiyasının təmin olunması istiqamətində Azərbaycanın səylərini dəyərləndirmək imkanı yaradır. Qeyd edək ki, bu, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərə diplomatik korpus nümayəndələrinin 20-ci səfəridir.

# AZAD OLUNMUŞ TORPAQLARDA YENİ HƏYAT




## Qarabağ, Şərqi Zəngəzur yenidən Azərbaycanın dilbər guşələrinə çevrilir. Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına son səfərlərinə həm də bu kontekstdən yanaşmaq lazımdır.

RASİM MƏZAHİROĞLU

Bir zamanlar qanlı döyüşlərə meydan olan Qarabağ və Şərqi Zəngəzur torpaqları indi tamam fərqli mənzərənin müşahidə edildiyi məkan kimi təkcə Azərbaycanda yox, ölkəmizin sərhədlərindən çox kənarlarda da diqqət mərkəzinə düşür. Bu yerlərdə gedən abadlıq-quruculuq işləri sürət dinamikası, əhatə dairəsi, çoxşaxəli xarakter daşıması baxımından fərqlənir.

### DOĞMA YURD-YUVASINA QOVUŞANLARIN SAYI SÜRƏTLƏ ARTIR

Postmüharibə dövründə azad edilmiş torpaqların yenidən qurulması, orada həyatın bərpası və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi kimi nəhəng missiyanın uğurunu şərtləndirən başlıca faktor bu prosesin Prezident İlham Əliyevin birbaşa nəzarəti və rəhbərliyi altında sistemli şəkildə reallaşdırılmasıdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yenidən həyat qaynayır, doğma yurd-yuvasına qovuşanların sayı artıq hər ay, hər həftə yox, demək olar ki, hər gün artır. Biri-birinin ardınca bu yerlərə yola salınan köç karvanları Qarabağ və Şərqi Zəngəzurun intibahını da özündə ehtiva edir. Üzərlərindən artıq məcburi köçkün statusu götürülən şəxslərin ata-baba torpaqlarında məskunlaşdırılması ilə yanaşı, məşğulluqlarından tutmuş təhlükəsiz və rahat şəraitdə yaşamlarının təmin edilməsi kimi geniş sferada olan bütün məsələlər də ən yüksək səviyyədə diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına son səfərlərinə həm də bu kontekstdən yanaşmaq lazımdır.

### CƏBRAYIL VƏ ZƏNGİLAN RAYONLARINDA YENİ AÇILIŞLAR

Dövlət başçısının budəfəki səfərləri də çoxsaylı açılış, təməlqoyma mərasimləri ilə yadda qaldı. Prezident İlham Əliyev Cəbrayıl rayonunda Horovlu kəndinin birinci mərhələsinin, "Şəfəq" Günəş Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak etdi, şəhər məscidinin, ikinci və üçüncü yaşayış komplekslərinin, Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməllərini qoydu. Zəngilan şəhərində isə dövlət başçısı 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış oldu, həmçinin Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak etdi.

Prezident İlham Əliyev Horovlu, Məmmədbəyli və Ağalı kəndlərində sakinlərlə görüşdü, buralara köçən sakinlərə mənzillərin açarlarını şəxsən təqdim etdi, onlarla söhbətləşdi, bütün arzu və istəklərini həmin insanların dilindən bilavasitə dinlədi. Prezident doğma vətənlərinə qayıdışları münasibətilə keçmiş məcburi köçkünləri təbrik etdi. Belə yüksək diqqət və qayğı heç şübhəsiz ki, insanları daha da ruhlandırır, gələcəklərinə inamlarını, əminliklərini artırır. Bu, həm də doğma torpaqlarda yaşayıb yaratmaq, düşmən tapdağından xilas olmuş əraziləri yenidən gülüstana çevirmək üçün mühüm bir stimuldur, dövlətin sözügedən istiqamətdə gördüyü işlərə fərdlərin də öz töhfələrini verməsinə təkan verən faktordur. Ümumiyyətlə, Prezident İlham Əliyevin azad olunmuş torpaqlara səfərləri eyni zamanda liderlə xalq arasında birliyin, rahat, sərbəst təmasın daha bir göstəricisidir. Hər bir səfərdə Prezident özü şəxsən işğaldan azad edilmiş şəhərləri, kəndləri ziyarət edir, yenidənqurma planları ilə tanış olur, sakinlərlə söhbət edir, onların rəy və təkliflərini dinləyir. Bu da aparılan bərpa-quruculuq prosesində insanların mövqeyinin nəzərə alınmasını təmin edir.

## QARABAĞDA, ŞƏRQİ ZƏNGƏZURDA DAYANIQLI MƏŞĞULLUQ MÜHİTİ

Prezident İlham Əliyev azad edilmiş ərazilərdə təkcə yaşayış məntəqələrinin deyil, həm də sosial həyatın bərpasını əsas prioritet kimi müəyyən edib. Müxtəlif sosial infrastrukturun inşası ilə yanaşı, bu yerlərdə iqtisadi fəaliyyətin canlandırılması istiqamətində də mühüm addımlar atılır. Horovlu kəndində sakinlərlə görüşündə Prezident İlham Əliyev bu mövzuya xüsusilə toxunub: "Qarabağda, Şərqi Zəngəzurda işsizlik olmamalıdır. Bütün bu şəhər və kəndlər tikiləndə bunu biz əsas vəzifə kimi qarşıya qoyuruq ki, burada yaşayan insanlar işlə təmin olunsunlar".

Dayanıqlı məşğulluq mühitinin formalaşdırılması istiqamətində görülən işlər təkcə azad olunan ərazilərin yox, ümumən ölkə iqtisadiyyatının yüksəlişində Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının xüsusi çəkisini davamlı şəkildə artırır. Bu ərazilərdə kənd təsərrüfatı və sənaye istehsalının bərpası, sahibkarlığın dəstəklənməsi istiqamətində görülən işlər artıq öz bəhrəsini verir, eyni zamanda dövlətin, onun liderinin bura köç edən insanlara da qayğısının daha bir təzahürü kimi çıxış edir. Digər bir mühüm nüans odur ki, azad olunan ərazilər innovativ kənd təsərrüfatı və ekoloji iqtisadiyyatın mərkəzi statusunu daşımağa başlayıb. Dövlətin yanaşması bundan ibarətdir ki, məşğulluq siyasəti bu ərazilərin iqtisadi dirçəlişinin və məskunlaşma prosesinin təməl daşıdır.

### DÜNYA ÜÇÜN UNİKAL İNKİŞAF MODELİ

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bərpa və quruculuq prosesi bu gün unikal inkişaf modeli kimi qəbul olunur. Bu bərpa prosesi həm də Azərbaycan xalqının yenilməzliyinin və dövlətin gücünün təcəssümüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydançasıdır: "Artıq 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır... "Böyük Qayıdış"ın əyani sübutu bu gün gözünüzün önündədir". Beləliklə, Azərbaycanın hər bir guşəsi kimi, azad edilmiş ərazilər də Prezident İlham Əliyevin rəhbərliyi altında dirçəlir, inkişaf edir, ölkəmizin qüdrətinə qüdrət qatır. Bu mənada şübhə yoxdur ki, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri sadəcə bir regionun dirçəlişi deyil, Azərbaycanın inkişaf fəlsəfəsinin yeni, özü də olduqca önəmli mərhələsidir.



# AZƏRBAYCAN ERMƏNİSTANI SÜLHƏ HAZIRLAYIR

Bakının uzaqgörən gedişi Ermənistan cəmiyyətinə Orta Dəhlizin iştirakçısına çevrilmək fürsətinin nə dərəcədə əhəmiyyətli olduğunu göstərdi. Otuz illik işğal embarqosunun aradan qalxması qərarının Ermənistan iqtisadiyyatına faydasını hətta revanşist qüvvələr belə gözdən sala bilmirlər.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son günlərdə Cənubi Qafqazda yaşanan proseslər yenidən dünyanın diqqətini özünə cəlb edib. Azərbaycanın birtərəfli qaydada Ermənistana qarşı tətbiq olunan tranzit embarqosunu ləğv etməsi bölgədə sülh prosesinə yeni nəfəs verib. Artıq qarşı tərəfdə, həmçinin regionun digər ölkələrində Azərbaycanın təşəbbüsü ciddi müzakirə olunmaqdadır.

### SÜLH ÜÇÜN UNİKAL İMKAN

Bakı ilə İrəvan arasında 30 ildən çox davam edən münaqişədən sonra etimad mühitinin yaradılmasına hesablanan bu cür açıqlamalar eşitmək, həqiqətən də, qeyri-adi görünür. Tərəflərin sülhə doğru addımlaması, heç bir vasitəçi olmadan danışıqlar apara bilməsi, hətta konkret iqtisadi əməkdaşlıq qurması Cənubi Qafqazda davamlı sabitliyin və inkişafın əldə olunması istiqamətində unikal imkanlar yaradır. Azərbaycan və Ermənistan yekun sülhü tezləşdirmək üçün siyasi iradələrini inamla nümayiş etdirirlər. Bu qərarlılıq isə özünü konkret addımlarla büruzə verir. Tranzit embarqosu aradan qalxır, vətəndaş cəmiyyətinin təmsilçiləri görüşür, kommunikasiya əlaqələrinin bərpası ciddi şəkildə müzakirə olunur. Bu addımlar bütün tərəflər, xüsusilə də Ermənistan üçün ciddi iqtisadi dividendlər deməkdir.

### İRƏVAN MAKSİMUM FAYDA GÖTÜRMƏYƏ ÇALIŞIR

İrəvan da bunun fərqindədir. Məsələn, Ermənistanın iqtisadiyyat naziri Gevork Papoyan etiraf edib ki, Qazaxıstan taxılının İran üzərindən yox, Azərbaycan vasitəsi ilə tranziti xeyli ucuz başa gəlir. Bu marşrut həm vaxt, həm də maddi və texniki baxımdan çox sərfəlidir. Papoyan daha da irəli gedərək Ermənistanın Azərbaycandan mal idxalında maraqlı olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycanın ixracının əhəmiyyətli hissəsi İrəvanın idxal tələbatına uyğun gəlir. “Yeni biz bir-birimizə çoxlu mal sata bilərik”, - nazir qeyd edib. Göründüyü kimi, Ermənistan Azərbaycanın onun üçün yaratdığı iqtisadi nəfəslikdən maksimum fayda götürməyə çalışır.

## Ermənistan Orta Dəhlizin iştirakçısı kimi

Bu qərarın siyasi tərəflərinə gəldikdə isə, Bakının uzaqgörən gedişi Ermənistan cəmiyyətinə böyük perspektivlər vəd edən Orta Dəhlizin iştirakçısına çevrilmək fürsətinin nə dərəcədə əhəmiyyətli olduğunu göstərdi. Hələlik çox ciddi iqtisadi və tranzit əlaqələr qurulmamasına baxmayaraq, 30 illik işğal embarqosunun aradan qalxması qərarının Ermənistan iqtisadiyyatına faydasını hətta revanşist qüvvələr belə gözdən sala bilmirlər. Beləliklə, İrəvan bütün dünyanın fokuslandığı Orta Dəhliz layihəsinin tam hüquqlu iştirakçısına çevrilmək şansı əldə edir. Bu məsələdə yekun qərarın Azərbaycandan asılı olduğunu çox gözəl bilən Ermənistan rəhbərliyi artıq Türkiyə üzərindən gələn yük maşınlarının hələlik mövcud imkanlar daxilində Azərbaycana maneəsiz keçidini təmin etməyə hazır olduğunu açıqlayıb.

### RUSİYANI MARAQLANDIRAN QƏRAR

Təbii ki, yaranmış fürsətlər imkanından yararlanmaq istəyən tək Ermənistan deyil. Bu məsələdə Rusiya tərəfi də ciddi qərarlar qəbul etmək ərəfəsindədir. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə bildirib ki, “Rusiya Dəmir Yolları” və onun regional həmkarları hazırda Rusiya mallarının Azərbaycan vasitəsilə Ermənistana tranzitinin təşkili üzərində işləyirlər. O qeyd edib ki, Bakı Moskvaya Rusiya məhsullarının Azərbaycan üzərindən Ermənistana tranziti üçün Azərbaycan dəmir yollarından istifadənin mümkünlüyünü təsdiqləyib: “Yəni bu məsələdə çox maraqlı irəliləyişlər əldə etmişik. “Rusiya Dəmir Yolları” hazırda regional həmkarları ilə birlikdə bu daşımaların necə təşkil olunacağını müəyyən etmək üçün çalışır. Eyni zamanda bu yeni logistika marşrutunun hazırlanması üçün Kənd Təsərrüfatı Nazirliyinə müvafiq göstərişlər vermişik”.

### BİRBAŞA DAŞIMA DAHA SƏRFƏLİDİR

Bakının məlum qərarının sülh istiqamətində əsas maneələrdən biri sayılan Zəngəzur dəhlizi məsələsini tətikləпід də sirr deyil. Artıq Ermənistan daxilində bu məsələdə iqtisadi müzakirələrə başlanılıb. Tranzit embarqosunun aradan qaldırılmasından sonra Gürcüstan üzərindən daşıma xərcləri əsas gətirilərək malların birbaşa Azərbaycan-Ermənistan sərhədindən daşınmasının daha effektli və səmərəli olduğu xüsusi vurğulanır. Təbii ki, bu məqam İrəvan rəhbərliyinin də məlumudur. Sözügedən təşəbbüsün reallaşması üçün isə ən ideal variant məhz Zəngəzur dəhlizi (TRIPP) layihəsinin ən qısa müddətdə reallaşmasıdır.



## SÜLHDƏN XƏBƏRSİZ OLAN ERMƏNİSTAN

Bu baxımdan Ermənistan rəsmilərinin açıqlamaları da diqqət çəkir. Ermənistan parlamentinin sədri Alen Simonyanın sözlərinə görə, TRIPP layihəsinin həyata keçirilməsi Ermənistan, Azərbaycan və qonşu dövlətləri birləşdirən boru kəmərləri, elektrikötürücü xətlər və rabitə kabellərinin inşası üçün şərait yaradır. “Layihə təkcə dəmir yolu əlaqələrinin inkişafını deyil, həm də Ermənistan, Azərbaycan və regionun digər ölkələri arasında avtomobil yolları, boru kəmərləri, elektrikötürücü xətlər və rabitə kabellərinin inşası perspektivini nəzərdə tutur”, - A.Simonyan qeyd edib.

Məlum proseslər yaşanarkən Ermənistan Baş naziri Nikol Paşinyanın sülh prosesi ilə bağlı etirafları qərarların hansı şəraitdə qəbul edildiyini və nə dərəcədə mühüm əhəmiyyət daşıdığına dair geniş təsəvvür yaradır. Paşinyanın “Qəbul etməliyik ki, sülh bizim üçün tanış olmayan bir haldır, Ermənistan Respublikası sülhün nə demək olduğunu bilmir” etirafı son beş ildə Azərbaycanın sülh gündəliyi formalaşdırmaq üçün atdığı hərbi-siyasi, indi isə iqtisadi addımların nə dərəcədə əsaslı olduğunu göstərir. Rəsmi Bakı sülhün və onun yaratdığı imkanların nə olduğunu bilməyən bir tərəflə danışıqlar aparır. Bu prosesdəki maneələri uzaqgörən qərarları ilə zərərsizləşdirir. Beləliklə, Azərbaycan qalib dövlət olaraq atdığı addımlarla Ermənistan kimi sülhdən xəbərsiz bir dövləti də sülhə hazırlayır.

# VAŞİNQTONDA MƏRKƏZİ ASİYA SAMMİTİ

ABŞ Prezidenti Donald Tramp Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan liderlərini 6 noyabrda Vaşinqtonda keçiriləcək Mərkəzi Asiya-ABŞ sammitinə dəvət edib. Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanın da sammitdə iştirakının mümkünlüyünü bildirib.





AZƏR NURİYEV

Vaşinqton Donald Trampın prezidentliyi müddətində daha bir tarixi sammitə ev sahibliyi edəcək. ABŞ Prezidenti Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan liderlərini 6 noyabrda Vaşinqtonda keçiriləcək Mərkəzi Asiya-ABŞ sammitinə (C5+1 formatı) dəvət edib. Bu, qeyd edilən formatda keçirilən ikinci sammit olacaq. Birinci sammit 2023-cü ildə Nyu-Yorkda, BMT Baş Assambleyasının iclası çərçivəsində Co Baydenin rəhbərliyi ilə keçirilib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev artıq Trampa dəvətə görə "səmimi minnətdarlığını bildirən" məktub göndərib. Özbəkistan və Qırğızıstan liderləri Şavkat Mirziyoyev və Sadir Japarov da sammitdə iştirak edəcəklərini təsdiqləyiblər.

### "TRAMP YOLU"NDAN MƏRKƏZİ ASİYAYA

Regional medianın məlumatına görə, dəvət ABŞ-nin Cənubi və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Serxio Qora və dövlət katibinin müavini Kristofer Landaunun Mərkəzi Asiyaya səfərindən sonra göndərilib. Onlar 25 oktyabrda Daşkəndə gəliblər. ABŞ Dövlət Departamenti səfərin məqsədinin "əhəmiyyətli mineral ehtiyatlar və enerji sahələrində ticarət və investisiyaları müzakirə etmək, eləcə də "C5+1" formatında regional tərəfdaşlığı inkişaf etdirmək" olduğunu bildirib. "Trampın yolu nəhayət Mərkəzi Asiyaya çatdı", - deyə qazax politoloq Mars Sarıyev "C5+1" sammiti ilə bağlı şərhində bildirib. "Sammit ABŞ tərəfindən aparılan ardıcıl, sistemli işlərin bir hissəsi kimi keçirilir. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasından və Cənubi Qafqazda Zəngəzur dəhlizinin yaradılmasından sonra ABŞ indi Mərkəzi Asiya ölkələrinin prezidentləri ilə sammit keçirmək qərarına gəlib", - deyə politoloq bildirib.


Donald Tramp

### ƏNƏNƏVİ TƏSİR DAİRƏLƏRİ RUSİYANIN ƏLİNDƏN ÇIXIR

M.Sarıyev əlavə edib ki, Vaşinqton Rusiyanın ənənəvi siyasi arenalarda təsirini azaltmaq üçün səylər göstərir. "Rusiya artıq faktiki olaraq Cənubi Qafqazdan sıxışdırılıb. Bu, sadəcə an məsələsidir. İndi növbədə Mərkəzi Asiyadır. Avropa və ABŞ ilə ticarət yüz milyardlarla dollarlıq dövriyyəni təmin edir ki, bu da həm Qafqaz, həm də Asiya ölkələri üçün çox cəlbedicidir. Vaşinqton sammitində əməkdaşlıq üçün yeni yollar təklif oluna bilər. Tramp Asiya turnesi zamanı Çin lideri Si Cinpinlə görüşməyi planlaşdırır. Buna görə də görüş əsas geosiyasi oyunçular arasında maraqların toqquşmasını yaratmayacaq", - deyə ekspert vurğulayıb.

### AZƏRBAYCAN DA İŞTİRAK EDƏCƏK?

Yeri gəlmişkən, Qazaxıstanın Prezidenti Tokayev Azərbaycanın Mərkəzi Asiya-ABŞ formatında qarşıdan gələn sammitdə potensial iştirakının mümkünlüyünü bildirib. "Azərbaycanın belə mühüm forumda iştirakını arzuolunan hesab edirəm. Bu ölkə enerji resursları, əlverişli coğrafi mövqeyi, strateji baxışı və Prezident İlham Əliyevin siyasi iradəsi ilə Cənubi Qafqazda və onun hüdudlarından kənarda son dərəcə mühüm rol oynayır, əslində regional nəqliyyat-logistika və enerji dövlətinə çevrilib. Azərbaycan Böyük Mərkəzi Asiyanın təbii hissəsi kimi nəzərdən keçirilə bilər", - deyə o qeyd edib.


Kasım-Jomart Tokayev

## BÖLGƏ UĞRUNDA MÜBARİZƏ GÜCLƏNƏ BİLƏR

Göründüyü kimi, sammit mühüm əhəmiyyət kəsb edir. Son vaxtlar ABŞ dövlət katibi və onun müşavirləri mütəmadi olaraq bölgəyə səfərlər edirlər və ya videoformat əsasında Mərkəzi Asiya ölkələrindəki həmkarları ilə müxtəlif mövzuları müzakirə edirlər. "5+1" formatından Pekin də istifadə edir. Mərkəzi Asiya ölkələrinin Çinlə sıx iqtisadi əlaqələri var. Bundan başqa, Çin Mərkəzi Asiya ölkələrinin əsas ticarət tərəfdaşı və investorudur. Çin bunun qarşılığında Mərkəzi Asiya ölkələrindən ucuz neft və qaz alır.

"C5+1" formatı 2015-ci ildə Barak Obama administrasiyası dövründə dövlət katibi Con Kerri tərəfindən düşünülmüşdü. O, 1992-ci ildən sonra Mərkəzi Asiyanın bütün dövlətlərinə səfər edən ilk yüksək rütbəli ABŞ məmuru idi. 2021-ci ilin əvvəlində Qazaxıstan, Özbəkistan və ABŞ özəl sektorda layihələrə bir milyard dollardan çox investisiya qoymaq və regionda iqtisadi tərəfdaşlığı gücləndirmək məqsədilə Mərkəzi Asiya İnvestisiya Tərəfdaşlığının yaradılması barədə razılığa gəldilər. Ümumiyyətlə, 2023-cü ilə qədər ABŞ hakimiyyətinin vəzifəsi Çinin Mərkəzi Asiya regionuna təsirini azaltmaq idi.

### VAŞİNQTONDAN MƏRKƏZİ ASİYAYA YENİ BAXIŞ BUCAĞI

Rusiyaya qarşı tətbiq edilən məhdudiyyətlər Vaşinqtona Mərkəzi Asiyaya yeni bir baxışla yanaşmaq imkanı verib. Bu region, ilk növbədə Rusiyadan yan keçən beynəlxalq ticarət dəhlizlərinin yaradılmasında tərəfdaşdır, neft daxil olmaqla qiymətli resursların, həmçinin kritik əhəmiyyətli mineralların və nadir torpaq metallarının mənbəyidir. Qazaxıstan son dörd ildə ABŞ ilə ticarət dövriyyəsini 3,3 milyard dollara qədər artırıb.

Vaşinqtonun Mərkəzi Asiya regionunda öz mövqeyini gücləndirmək istəyi aşkar olsa da, ən azından Qazaxıstan və Özbəkistanla əlaqələr hesabına, daha böyük yaxınlaşma yolunda "Cekson-Venik" düzəlişi durur. Bu düzəliş ilk növbədə tam miqyaslı ticarət münasibətlərinə maneə törədir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# ABŞ və Çin barışa doğru



Pusanda ABŞ Prezidenti Donald Tramp və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında baş tutan görüş bütün dünyanın diqqət mərkəzindədir. Görüşdə əsas diqqət iki ölkə arasında yaşanan ticarət gərginliyinə və Ukrayna böhranına yönəlib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Həftənin ən önəmli hadisələrindən biri Cənubi Koreyanın Pusan şəhərində ABŞ Prezidenti Donald Tramp və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında baş tutan görüş oldu. Dünyanın qlobal iqtisadi tendensiyasına birbaşa təsir edən görüş bir saat 40 dəqiqə davam edib.

### TRAMP GÖRÜŞDƏN RAZIDIR

Görüşün detallarına gəldikdə isə, ekspertlər əsas diqqətin iki ölkə arasında yaşanan ticarət gərginliyi, Ukrayna böhranı, tarif siyasəti və fentanil komponentlərinin ixracına qarşı mübarizə məsələlərinə yönəldiyini qeyd edirlər.

Görüşdən sonra Vaşinqtona dönüş yolunda Çin lideri ilə görüşünün nəticələrini dəyərləndirən Donald Tramp bildirib ki, tərəflər Ukrayna müharibəsinə son qoymaq üçün birlikdə işləmək barədə razılığa gəliblər.

CNN-in məlumatına görə, ABŞ Prezidenti Çin liderilə görüşünü yüksək qiymətləndirərək, tezliklə imzalana biləcək ticarət razılaşmasına nail olduqlarını bildirib, lakin əlavə məlumat verməyib. "Bu, gözəl görüş idi. O, əla liderdir", - deyə Tramp bildirib. O, fentanil komponentlərinin ABŞ-ya ixracının dayandırılması müqabilində bütün Çin mallarına tarifləri dərhal endirəcəyini bildirib. Tramp qeyd edib ki, Çin ABŞ-dan soya paxlasının idxalını bərpa edəcək və nadir torpaq metallarının ixracına maneələr yaratmağı dayandıracaq. Tramp həmçinin bildirib ki, o və Si soya ticarəti və fentanil ilə əlaqəli tariflər də daxil olmaqla "demək olar ki, hər şey" barədə razılığa gəliblər. ABŞ Çin mallarına tarifləri 20%-dən 10%-ə endirəcək.

### PEKİNİN MÖVQEYİ

İki super dövlətin liderlərinin görüşünün nəticələrinə dair Pekin də mövqeyini açıqlayıb. Çin Sədri Si Cinpin Donald Trampla danışıqlardan sonra ticarətlə bağlı problemlərin həlli yolları barədə konsensusa nail olunduğunu bildirib. "Çin və ABŞ hər iki ölkə və bütün dünya üçün daha əhəmiyyətli, praktik və faydalı təşəbbüslərin həyata keçirilməsi üzərində birgə işləyərək böyük dövlətlərə yaraşan məsuliyyət nümayiş etdirə bilər", - o bildirib. Si Cinpin qeyd edib ki, hər iki ölkə qeyri-leqal miqrantlar, kiberdələduzluq, çirkli pulların yuyulması ilə mübarizə və süni intellekt kimi sahələrdə əməkdaşlıq üçün perspektivli imkanlara malikdir.

### RUSİYA-UKRAYNA MÜHARİBƏSİ

Beynəlxalq şərhçi Kon Koflin "The Telegraph"a açıqlamasında bildirib ki, Donald Trampın Si Cinpinlə görüşləri ABŞ liderinin Ukraynadakı müharibəyə son qoymaq səylərinə yeni təkan verə bilər. Analitikin sözlərinə görə, Rusiyanın hərbi kampaniyası əsasən Çin tərəfindən dəstəklənir və bu, Pekinin Qərbin sanksiyalarına baxmayaraq, böyük həcmdə Rusiya nefti almağa davam etmək istəyi ilə bağlıdır. Hindistanla birlikdə Çin gündə 3,5-4,5 milyon barel Rusiya nefti idxal edir. Nəticə etibarilə, Moskva ilə Pekin arasında sözdə "sərhədsiz tərəfdaşlığa" son qoymaq Tramp administrasiyası üçün prioritetə çevrilib. Trampın Si Cinpinlə görüşdə Rusiya neftinin tədarükünü müzakirə etməmək qərarı, Vaşinqtonun Pekinlə sabit münasibətlər qurmağa diqqət yetirmək istəyini göstərə bilər. "Bloomberg" hesab edir ki, bu, ABŞ və Çin arasında uğurlu ticarət razılaşmasını asanlaşdıracaq.



Kon Koflin

## Bütün problemlər həll olunmayıb

Bununla belə, ABŞ-nin ticarət danışıqlarındakı nümayəndəsi Ceymison Qrir "Fox Business" telekanalına verdiyi müsahibədə bildirib ki, ABŞ və Çin arasındakı münasibətlərdə bütün problemlər hələ də tam həll olunmayıb. Qrir bu fikirləri görüşü şərh edərkən səsləndirib. "Bu günə qədər ABŞ və Çin arasındakı münasibətlərdə bütün problemləri həll edə bilməmişik. Hələ də ABŞ şirkətlərinin Çində fəaliyyəti və ya orada iş qurmaq cəhdləri ilə bağlı bir çox açıq suallar qalır", - deyə o vurğulayıb. Qririn sözlərinə görə, ABŞ administrasiyası, ilk növbədə, nadir torpaq metallarının tədarükünün bərpasına, Pekinin ABŞ kənd təsərrüfatı məhsullarını almasını təmin etməyə və Çinlə birlikdə fentanil qaçaqmalçılığı probleminin həllində əməkdaşlığa çalışıb. "Biz bütün bunların öhdəsindən gəldik", - deyə ticarət nümayəndəsi qeyd edib.

## Görüşlə bağlı Rusiyadan baxış

Bu görüşə ən çox diqqət yetirən ölkələrdən biri də Rusiya olub. Bu baxımdan Tramp-Si görüşü ilə bağlı rusiyalı ekspertlərin də fikirləri maraqlıdır.

"Donald Tramp və Si Cinpin arasındakı danışıqların ABŞ-Çin münasibətlərində strateji irəliləyiş verəcəyi gözlənilirdi, lakin onların nəticələri ticarət müharibəsində müvəqqəti atəşkəsə daha çox bənzəyir", - deyə politoloq Mirzet Ramiç TASS-a bildirib. O, süni intellekt sahəsindəki gərginlik, eləcə də Tayvan məsələsi və Cənubi Çin dənizindəki ərazi mübahisələri kimi ən fundamental məsələlərin görüşdə müzakirə olunmadığını qeyd edib. Ekspert bildirib ki, ABŞ-Çin razılaşması Donald Trampın "tarif diplomatiyası"nın klassik nümunəsidir.



Marina Lapenko

Siyasi ekspert Marina Lapenko isə bu qənaətdədir ki, Trampın yaratdığı durğunluqda heç bir irəliləyiş əldə olunmayıb, lakin görüş qlobal geosiyasi gərginliklər fonunda sabitləşdirici amil rolunu oynayıb. Onun sözlərinə görə, görüşün əsl əhəmiyyəti yalnız bundan sonra hazırlanacaq rəsmi sənədlərlə təsdiqlənə bilər.

Siyasi şərhçi Sergey Tsıplakov bildirir ki, ABŞ və Çin arasında ticarət müharibəsinin danışıqlardan sonra uzunmüddətli perspektivdə başa çatacağı gözlənilmir. Lakin daha uzunmüddətli və daha sabit kompromis şansları artıb. "Uzunmüddətli perspektivdə ticarət müharibəsinə və iki ölkə arasında kəskin qarşıdurmaya son qoymaq barədə danışmaq üçün hələlik ciddi əsaslar yoxdur. Ziddiyyətlər həll olunmayıb, yalnız bir müddət təxirə salınıb", - deyə Tsıplakov hesab edir.

# BU İL AZALIB, AMMA GƏLƏCƏKDƏ ÇOXALACAQ

Bu ilin yanvar-sentyabr aylarında Bakıda metrodan istifadə edənlərin sayı azalıb. Taksidən istifadə edənlərin sayında isə artım qeydə alınıb. Ekspertlər bu statistikanın gələcəkdə dəyişəcəyini proqnozlaşdırırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Foto: Əjdər İbrahimov/ Global Photostock

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda metrodan istifadə edən sərnişinlərin sayı 162 575,8 min olub, bu da illik müqayisədə 2,4 faiz azalma deməkdir. Həmçinin cari ilin yanvar-sentyabr aylarında Azərbaycanda taksi xidmətindən istifadə edən sərnişinlərin sayı 61 809,5 nəfər olub, bu da illik müqayisədə 0,7 faiz artım deməkdir. Bəs insanların yenidən taksiyə qayıtmasının səbəbləri nədir? Metro istifadəsini təşviq etmək üçün nələr edilməlidir?

**AZALMANIN SƏBƏBLƏRİ**

"Bakı Metropoliteni" QSC-dən sorğumuza cavab olaraq bildirildi ki, qurumda statistik məlumatlar əsasında müqayisəli təhlillərin nəticələrinə uyğun daimi monitorinqlər aparılır və tədbirlər görülür: "2025-ci və 2024-cü illərin 9 ayının müqayisəli təhlillərinə əsasən, sərnişindaşımaya təsir göstərən əsas fərqlər sırasında "Həzi Aslanov" stansiyasının dalanında başlanmış təmir işləri və bunun nəticəsində "Həzi Aslanov-Əhmədli" mənzili üzrə hərəkətin təşkili qeyd oluna bilər. Həmçinin 2024-cü ildə ölkəmizdə dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən olan COP29-la əlaqədar paytaxtda aparılan yenidənqurma, təmir-bərpa, quruculuq və abadlıq işlərinə uyğun müxtəlif dövrlər və günlərdə metropolitenə olan tələbatın müvəqqəti artması əlavə oluna bilər. Təqvimlə bağlı 2024-cü ilin 366 gündən ibarət olması və fevral ayının 29-nun iş gününə təsadüf etməsi, eyni zamanda 780 minə yaxın sərnişin daşınması və hava şəraiti ilə əlaqədar qış aylarının bu ilə nəzərən daha mülayim keçməsi də qeyd oluna bilər".

**"METROYA TƏLƏBAT ARTACAQ"**

Bildirildi ki, hazırda Bakı metropolitenində Dövlət Proqramına uyğun olaraq tikinti və yenidənqurma işləri davam etdirilir: "10 yeni stansiyanın inşası, xətlərin ayrılması və bunun nəticəsində daha 88 milyon sərnişinin daşınması imkanı, metro xətlərinin bir-biri ilə daha sıx kəsişərək şəbəkələşməsi və şəhər mərkəzini daha sıx əhatə etməsi metroya olan tələbatı xeyli artıracaq. Bununla belə, mövcud texniki imkanların optimallaşdırılması ilə digər əhəmiyyətli tədbirlər də davamlı həyata keçirilir. Son 16 il ərzində ilk dəfə Yaşıl və Qırmızı xətlərin müştərək hərəkət sahəsində qatarların hərəkət intervalı 2 dəqiqədən, digər sahələrdə isə 4 dəqiqədən aşağı salınıb.

Bu ilin may ayında mövcud texniki imkanlar daxilində aparılmış təkmilləşmə işləri sayəsində interval əvvəlcə pik saatlarda 1 dəqiqə 52 saniyəyə, bu ilin sentyabrında isə 1 dəqiqə 45 saniyəyə endirilib. Ümumilikdə pik saatlarda xətlərdə 34 cüt qatarın hərəkət etməsi əlavə 8 mindən artıq sərnişinə xidmət imkanı yaradır. Lakin bu yeniliyin əsas təsirləri əvvəlki illərlə müqayisədə sərnişin sıxlığının azaldılmasında özünü büruzə verir. Həmçinin aparılan mütəmadi monitorinqlər və texniki təkmilləşdirmələr nəticəsində daha iki sahədə də intervalın azaldılmasına nail olunub. Bunun nəticəsində "Həzi Aslanov-Əhmədli" mənzilində qatarların hərəkəti pik saatlarda beş, qeyri-pik saatlarda üç dəqiqə, "Cəfər Cabbarlı-Xətai" mənzilində isə qatarların hərəkət intervalı 5 dəqiqə azaldılıb".

## "2030-cu ilə qədər gündəlik bir milyon insan daşınacaq"

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev də bildirdi ki, metroda sərnişin sayında hələ pandemiyadan öncəki rəqəmlərə çatmamışıq: "Keçən il daşınmanın artmasının səbəbi COP29 tədbiri idi. Bu il üçün azalmanın səbəblərindən biri də "Həzi Aslanov" stansiyasında gedən təmir işləridir. Havaların sərt keçməsi də təsirsiz ötüşmür".

R.Ağamirzəyev düşünür ki, metroda nəzərdə tutulmuş işlər, xətlərin ayrılması və şəbəkənin genişlənməsi kimi layihələr bu sayı əksinə dəyişəcək: "Hər bir xəttin ayrıca deposu olacaq. Bu da minimum intervalla hərəkət etmək üçün imkan yaradacaq. "Dərnəgül" elektrik deposu inşa ediləcək və "Yaşıl xətt"ə aid olacaq. 2027-ci ilin sonuna qədər istifadəyə veriləcək. "Qırmızı xət"də hərəkətin mümkün ən minimal interval hədlərinə çatdırılması üçün "İçərişəhər" stansiyasının arxasından qatarların geri qaytarılması məqsədilə dönmə kamerasının inşası planlaşdırılıb və müvafiq işlərin aparılması üçün ilkin tədbirlər görülür".




Ekspertin fikrincə, indiki vəziyyətdə müəyyən qisim sərnişinlər taksiyə yönəlibsə, bu, dəyişən prosesdir. Növbəti illərdə yeni infrastruktur tikiləndən, interval dəyişikliyi olandan sonra insanların prioriteti ictimai nəqliyyata doğru daha da artacaq: "Xətlərin şəhər mərkəzinə çatdırılması, şəhərin digər hissələri ilə əlaqələndirilməsi ümumi dövriyyənin artımına zəmin yaradacaq. Bu gün metroda günlük 640 min sərnişin daşınırsa, düşünürəm ki, 2030-cu ilə qədər bu rəqəmin 800 min-1 milyon günlük trafikə qalxması gözlənilir".

**"METRO STANSİYALARI ARASINDA MƏSAFƏ AZ OLMALIDIR"**

Nəqliyyat eksperti Yasin Mustafayev də düşünür ki, gələcəkdə insanlar ictimai nəqliyyata daha çox yönələcək: "Metro stansiyalarının artırılması ilə bağlı hələ yeni qərar verilib. Yaxın beş ildə 10 yeni stansiya tikiləcək. Böyük şəhərlərdə metro stansiyaları 1,5 kilometr aralığında olur. 700-800 metr piyada gediləcək məsafələrdə hər tərəfdə metro olmalıdır. Belə olan halda metronun işi optimallaşır. Taksi sahəsində aparılan islahatlar da öz effektini verməkdədir. Taksi sayına limitin qoyulması düzgün addımdır. Çünki çalışıb insanlarımızı çoxtutumlu nəqliyyat vasitələrinə yönəltməliyik. Yalnız belə olan halda şəhərdəki tıxacın qarşısını ala bilərik".

“AZƏRBAYCANIN İNSAN KAPİTALININ İNKİŞAFINA VƏ PRİORİTET İXTİSASLAR ÜZRƏ KEYFİYYƏTLİ TƏHSİLƏ ÇOX EHTİYACI VAR”

# “MƏNİ SAY DEYİL, DAHA ÇOX SEÇİM PROSESİ NARAHAT EDİR”



Fotolar:
Əjdər İbrahimov/Global Photostock

**Rizvan Qənbərli:** “Əsas məsələ neçə nəfərin seçilməsi yox, kimin və necə seçilməsidir. Ola bilər ki, 125 nəfəri 300-ə qədər artıraq, amma həmin 300 nəfərdən yalnız 30-u dörd il ərzində proqramın məqsədlərinə real şəkildə töhfə versin”.

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Xaricdə təhsil üzrə Dövlət Proqramı Azərbaycanda gənclərin xaricdə ali təhsil imkanlarını genişləndirir. Lakin proqramın tətbiqi, seçim meyarları və şəffaflıq məsələləri tez-tez müzakirə mövzusu olur. Bu mövzuda xaricdə təhsil üzrə ekspert Rizvan Qənbərli ilə söhbətləşdik.

● **Rizvan bəy, Dövlət Proqramının əsas məqsədi Azərbaycanda insan kapitalının inkişafıdır. Sizcə, bu məqsəd indiki seçim mexanizmi ilə uzlaşırmı?**

● Bəli, proqramın məqsədi yaxın illərdə insan kapitalının inkişafı baxımından yetərlidir. Xaricdə təhsil istiqamətində gənclər populyar ixtisaslara yönəlirlər. Məsələn, tibb, hüquq və kompüter mühəndisliyi kimi sahələr daha çox seçilir. Bu ixtisasların təməlində duran fundamental elmlərə və əsas ixtisaslara isə maraq azdır. Halbuki həmin fundamental sahələr digər peşələrin və ixtisasların da bünövrəsini formalaşdırır. Bu baxımdan, xaricdə təhsil proqramında prioritet ixtisasların müəyyənləşdirilməsi çox önəmlidir. Bu ixtisaslarda dünyanın nüfuzlu universitetlərində əldə olunan keyfiyyətli təhsil və təcrübə Azərbaycanın yaxın gələcəkdə yüksək ixtisaslı kadrlarla təmin olunmasına böyük dəstək olacaq. Azərbaycanın insan kapitalının inkişafına və prioritet ixtisaslar üzrə keyfiyyətli təhsilə çox ehtiyacı var. Təəssüf ki, bu təhsil əsasən ölkə xaricində əldə olunur. Bu səbəbdən də proqramın fəaliyyətini müsbət qiymətləndirir, davamlı olmasını arzulayıram.



## “Beş illik məcburiyyət problemli sahəmizdir”

● **Dövlət Proqramı xaricdə təhsil alanların beş il ölkədə işləməsini tələb edir, lakin təhsildən sonra hər kəs ölkəyə qayıtmır. Sizcə, bu şərtin yenilənməsinə ehtiyac varmı?**

● 2008-2015-ci illərdə müəyyən ixtisaslar üzrə hökumətlərarası təqaüd proqramı mövcud idi. Lakin oraya gedən tələbələrin çoxu geri qayıtmadığı üçün məcburi qayıtma şərti qoyuldu. Fəlsəfi baxımdan düzgün yanaşma budur ki, dövlət investisiya qoyur, kadrlar yetişdirir və bu kadrlar ölkəyə qayıtmalıdır. Lakin məzun olduqdan dərhal sonra beş illik məcburiyyət, fikrimcə, düzgün deyil. Məsələn, bu il 300-dən çox tələbə magistr təhsili üçün xaricə göndərilib. Onların illik təhsil haqqı və yaşam xərclərini nəzərə alsaq, dövlət hər tələbə üçün 40-50 min dollar sərf edir. Bir illik təhsillə onları dərhal beş illik əmək fəaliyyətinə məcbur etmək, həmin tələbələrin insan kapitalı kimi formalaşmasına əngəl ola bilər. Məncə, tələbələrə müəyyən qədər möhlət verilməlidir. Müəyyən şərtlər qoyulmalıdır ki, onlar təhsilini başa vurduqdan sonra qlobal universitetlərdə və ya beynəlxalq şirkətlərdə təcrübə toplaya bilsinlər. Məsələn, Oksford Universitetində bir illik təhsil alan tələbə məzun olduqdan sonra akademik və ya elm adamı kimi iş təklifi alırsa, onu dərhal beş illik məcburiyyətlə ölkəyə qaytarmaq əvəzinə, 2-3 il həmin universitetdə təcrübə toplamasına imkan verilməlidir. Eyni yanaşma “Google”, “Amazon”, NASA kimi qlobal şirkətlərdə təcrübə qazanan tələbələrə də tətbiq oluna bilər. Bu, həm onların təhsilindən maksimum fayda götürülməsini təmin edər, həm də ölkəyə qayıtdıqda daha yüksək səviyyəli kadr kimi töhfə verə bilərlər. Yəni, beş illik məcburiyyətin dərhal tətbiqi problemli sahəmizdir.

● **Rəqəmlərə baxsaq, bakalavr təhsili üzrə hər il cəmi 125 gənc bu proqramdan yararlana bilir. Sizcə, bu sayın artırılmasına ehtiyac varmı?**

● Bakalavr pilləsində rəqabət çoxdur. Bizim kimi cəmiyyətlərdə ailələr üçün universitet təhsili övladlarının 11 illik məktəb həyatının ən vacib nəticəsidir. Onlar bu mərhələyə çox ciddi hazırlaşır və abituriyentlə birlikdə məqsədyönlü şəkildə addım-addım irəliləyirlər. Nəticədə ortaya kifayət qədər iddialı namizədlər çıxır və onların arasından cəmi 125 nəfəri seçmək, doğrudan da, asan iş deyil. Əgər düzgün yanaşma tətbiq olunarsa, bu 125 nəfərlik kvota əslində kifayət qədər əhəmiyyətli rəqəmdir. Amma büdcə imkan versə, sayın artırılması da heç kimə zərər verməz. Məni say deyil, daha çox seçim prosesi narahat edir. Çünki əsas məsələ neçə nəfərin seçilməsi yox, kimin və necə seçilməsidir. Ola bilər ki, 125 nəfəri 300-ə qədər artıraq, amma həmin 300 nəfərdən yalnız 30-u dörd il ərzində proqramın məqsədlərinə real şəkildə töhfə versin. Bu səbəbdən, burada əsas diqqət kəmiyyətə deyil, keyfiyyətə yönəlməlidir.



*“Əzbərçi təhsil sistemi istər-istəməz bizi dərsdənkənar bacarıqlardan uzaqlaşdırır. Ailələr də, uşaqlar da bu bacarıqların nə qədər önəmli olduğunu dərk etməkdə çətinlik çəkirlər və haqlıdırlar.”*

### “BİZ ONLARI VERMƏDİYİMİZ İMKANLARLA SINAĞA ÇƏKİRİK”

● **Seçilən ixtisas və universitetlərin 70 faizinə yalnız 12 illik təhsil və ya beynəlxalq proqram diplomu olanlar müraciət edə bilirlər. Sizcə, bu kriteriya düzgündürmü?**

● Düzgün deyil. Çünki belə olan halda sosial ədalətlilik aradan qalxır. Ən önəmli məsələlərdən biri də odur ki, biz xaricdə təhsil təqaüdü baxımından abituriyentlərə şans vermək istəyirik, amma həmin abituriyentləri 11 illik təhsil sistemi ərzində vermədiyimiz imkanlarla sınağa çəkirik. Bu isə, açıq desək, həm məntiqsiz, həm də bir qədər absurd görünür. Bizdə hələ 12 illik təhsil sistemi yoxdur, dərsdənkənar sosial bacarıqlar, 21-ci əsr üçün vacib sayılan tənqidi düşünmə, oxuduğunu anlama kimi bacarıqlar məktəblərdə yetərincə formalaşmır. Amma məhz bu bacarıqlara sahib olmayan gəncləri təqaüdlü təhsil üçün seçməyə çalışırıq.

Digər tərəfdən, iki tələbəni götürsək, hər ikisi eyni universitetə qəbul olub, akademik nəticələri də bənzərdir. Əgər hər ikisi seçim meyarlarına uyğun gəlirsə, sənədləri qəbul olunur və müsahibə mərhələsinə dəvət alır. Məhz bu mərhələdə bəzən qəribə situasiyalar yaşanır. Bu tələbələrin universitetə qəbul olmaq üçün çəkdikləri əziyyət, göstərdikləri akademik səylər bəzən münsiflər heyətinin subyektiv dəyərləndirmələrindən asılı olur. Məsələn, bir tələbənin ailəsinin maddi imkanı zəif olub, heç bir dərsdənkənar fəaliyyətlə məşğul ola bilməyib. Digəri isə əksinə, ailəsinin dəstəyi ilə rəsm kurslarına gedib, hətta xaricdə sərgilərdə iştirak edib. Və ya biri basketbol topu almağa belə çətinlik çəkib, digəri isə rahat şəkildə idman zalında məşq edib, müəllimlə çalışıb. Müsahibədə “boş vaxtını necə keçirirsən?” sualına biri “heç nə ilə”, digəri “basketbolla məşğul oluram” cavabını verəndə artıq balans pozulur. Əlbəttə, bu bacarıqlar dərsdənkənar fəaliyyət, yaradıcılıq, sosial çeviklik yeni nəsil gəncliyin formalaşmasında çox vacibdir. Amma bu, hər kəsin bərabər imkanlara malik olduğu anlamına gəlmir. Onların qiymətləndirilməsinin münsiflərin 15-20 ballıq subyektiv dəyərləndirməsinə bağlanması şəffaflıq suallarını qaçılmaz edir. Təqaüd proqramının şəffaflığı ilə bağlı konkret iddiam və ya ittihamım yoxdur. Sadəcə, narahatlığım var.

● **Sizcə, sosial ədaləti bərpa etmək üçün prosedurlar sadələşdirilməli, yoxsa çətinləşdirilməlidir? Yəni, qəbul cavabında hansı meyarlar əsas götürülməlidir?**

● Prosedurların sadələşdirilməsi namizədlərin sayını artırmaq deməkdir. Amma namizədlərin çoxalması eyni zamanda seçimin daha da çətinləşməsi anlamına gəlir. Əslində, proqram çərçivəsində təqdim olunan universitetlər və ölkələr təhsil keyfiyyətinə görə kifayət qədər yüksək səviyyəlidir. Onlar dünya universitetləri reytinqlərinin zirvəsində qərarlaşan, qəbul prosesi çox çətin olan ali məktəblərdir. Bu baxımdan, həmin universitetlərə qəbul ala bilən tələbələr arasından seçim aparmaq, proqramın sağlam və dayanıqlı şəkildə davam etməsi üçün daha məntiqli yanaşmadır. Lakin burada başqa bir problem də var. Xüsusilə bakalavr pilləsində elə universitetlər və ixtisaslar var ki, demək olar, heç kim ora getmək istəmir. Bəzən bir-iki istisna hal olur, amma ümumilikdə nə müraciət edən var, nə də həmin xətlə xaricdə təhsil alan. Bu səbəbdən, bakalavr səviyyəsində təqdim olunan ölkələr və proqramlar daha məqsədyönlü şəkildə şaxələndirilməlidir. Yəni, əgər doğrudan da müəyyən universitetlərə qəbul ola biləcək potensiallı tələbələr yetişibsə, həmin qapılar onlara açılmalıdır. Əksinə, biz hazırda “çətinləşdirmək” adı altında seçim meyarlarını elə bir formaya salmışıq ki, bu, sosial ədalətsizlik yaradır. 12 illik təhsil tələbi buna nümunədir. Azərbaycan hələ 12 illik təhsilə keçmədiyi üçün, bu tələbi əsasən beynəlxalq məktəblərdə oxuyan, özəl təhsil alan şagirdlər qarşılayır. Nəticədə, bu qrup abituriyentlər üçün əlavə üstünlük, yəni sosial avantaja çevrilir. Halbuki, əslində çətinləşdirmə sosial ədaləti artırmaq üçün edilməlidir, məhdudlaşdırmaq üçün yox. Məsələn, ABŞ kimi 12 illik təhsil sistemi tələb etməyən ölkələrin universitetləri niyə bakalavr səviyyəsində siyahıya daxil edilmir? Rusiyada yerləşən universitetlərlə Amerikanın ali məktəblərini yan-yana qoymaq mümkündür, amma biz əvəzində daha çox Britaniyanın 12 illik təhsil əsaslı universitetlərini təqdim edirik. Bundan başqa, siyahıya elə universitetlər də daxildir ki, onların qəbul nəticələri dövlət proqramının qalibləri açıqlanandan sonra bəlli olur. Belədirsə, bu universitetləri siyahıya salmağın nə mənası var?

Məsələn, Türkiyə və Almaniya kimi ölkələrin universitetləri adətən nəticələri avqust ayında elan edir. Amma biz onları da proqrama daxil edib oraya tələbə seçməyə çalışırıq. Nəticədə, bu, seçimi asanlaşdırmaq yox, əksinə, prosesi daha da qarışıq və çətin edir. Yəni, bizim istəyimiz prosedur çətinliyi deyil, təhsil keyfiyyəti baxımından çətinlik olmalıdır.



## “Tələbələri sərt sınaqla üz-üzə qoymaq doğru deyil”

● **Rizvan bəy, bəzi ölkələrdə imtahan nəticələri ilə yanaşı, sosial-iqtisadi faktorlar da nəzərə alınır. Bizdə belə bir sistem tətbiq edilə bilərmi?**

● Əlbəttə, proqram çərçivəsində tələbələrin maliyyə təminatı məsələsi həssasdır. Burada ciddi problem təqaüdün dərhal dayandırılması ilə bağlıdır. Məsələn, birinci yarımillikdə tələbənin kəsiri varsa, onun təqaüdü dərhal kəsilir. Bu yanaşma həmişə düzgün deyil. Çünki bəzi universitetlərdə birinci semestrdə yaranan kəsir ikinci semestrdə və ya yay dövründə əlavə dərslər götürməklə aradan qaldırıla bilər. Yanvarda birinci semestr bitir, əgər kəsir varsa, tələbə ikinci semestrdə bütün təhsil xərclərini öz hesabına ödəməli olur. Amma qəbul olunan universitetlərin yarımillik təhsil haqları çox vaxt ailələr üçün böyük maliyyə yüküdür. Tələbələri tədris ilinin ortasında belə sərt bir sınaqla üz-üzə qoymaq doğru deyil.

● **Müsahibə mərhələsində abituriyentlərə mane olan ən böyük problemlərdən biri məktəblərdə dərsdənkənar fəaliyyətlərin yetərli olmamasıdır. Dövlət məktəblərində dərsdənkənar fəaliyyətlər və “soft skill”lərin inkişafı üçün hansı infrastruktur boşluqları var?**

● Əzbərçi təhsil sistemi istər-istəməz bizi dərsdənkənar bacarıqlardan uzaqlaşdırır. Ailələr də, uşaqlar da bu bacarıqların nə qədər önəmli olduğunu dərk etməkdə çətinlik çəkirlər və haqlıdırlar. Çünki sistem elə qurulub. Orta məktəbdə və hətta ali təhsil üçün qəbul imtahanlarında tələb olunan əsas bacarıq yüksək bal toplamaqdır. Bu isə repetitorluğun inkişafına gətirib çıxarır. Yəni, dərsdənkənar bacarıqlardan daha çox, repetitorluq ön plana çıxır. Təbii ki, bu, təşviq ediləcək bir model olmalıdır. Məktəblərdə yumşaq bacarıqları inkişaf etdirən klubların təkmilləşdirilməsi bunun bir hissəsidir. Eyni zamanda kurrikulum və dərs vəsaitlərində də dəyişiklik edilməli, əzbərçi modeldən bacarıq əsaslı modelə keçid yolları tapılmalıdır.

● **Sizcə, hər ölkənin iqtisadi vəziyyəti və yaşayış dəyəri nəzərə alınaraq diferensial (ölkəyə uyğun) təqaüd sistemi tətbiq edilməlidirmi?**

● Mütləq diferensial yanaşma tətbiq olunmalıdır. Yəni, təqaüd miqdarı müəyyən edilərkən fərqli ölkələrdəki yaşam xərcləri nəzərə alınmalıdır. Təbii ki, hazırkı məbləğ müəyyən edilərkən bu faktorlar nəzərə alınıb, amma qeyd etmək lazımdır ki, bu, 2022-ci ildə tətbiq olunan məbləğ əsasında hazırlanıb və yenilənməsinə ehtiyac var. Xüsusilə hansı ölkələrdə həyat xərcləri daha çox artıbsa, həmin ölkələr üçün təqaüd miqdarlarının yenidən nəzərdən keçirilməsi vacibdir. Bu, proqramın həm ədalətli, həm də realist olmasını təmin edəcək.

# QORUQLARA MARAQ ARTIB

**Bu ilin yanvar-sentyabr aylarında DTA-nın Qoruqları İdarəetmə Mərkəzinin tabeliyində olan qoruqlarda bilet satışından 4,8 milyon manatdan çox gəlir əldə edilib. Əldə olunan gəlir ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 10% artıb.**



Dövlət Turizm Agentliyinin (DTA) tabeliyindəki qoruq və müəssisələrdə aparılan bərpa işləri, həmçinin 2025-ci ilin 9 ayı ərzində qoruqları ziyarət edənlərin statistikası təqdim edilib. Palçıq Vulkanları Turizm Kompleksində baş tutan təqdimatda Qoruqları İdarəetmə Mərkəzinin İdarə Heyətinin sədri Murad Ağabəyli "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində, o cümlədən qoruqdakı Dairəvi Məbəddə həyata keçirilən bərpa işləri, eləcə də "Kiş" Tarix-Memarlıq Qoruğu ərazisindəki tarixi məsciddə aparılan bərpa işləri haqqında məlumat verib.

### "LAHIC" QORUĞUNDA PARKİNQ ZONASI YARADILACAQ

Bildirilib ki, "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində Qoruq evinin inşası tamamlanmaq üzrədir. "Lahıc" Qoruğunda parkinq zonasının yaradılması üzrə işlər də davam etdirilir. Eyni zamanda "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunda tikinti-bərpa tədbirlərinin yeni mərhələsi çərçivəsində məsciddə, park-muzeydə, həmçinin bəzi obyektlərdə tarixi memarlıq üslubu qorunmaqla işlər aparılır.

M.Ağabəylinin sözlərinə görə, Palçıq Vulkanları Turizm Kompleksində azərbaycanlı sənətkarların iştirakı ilə milli suvenirlərin hazırlanmasına başlanılıb. Kompleksin ərazisindəki palçıq vulkanlarının əsas hissəsində yerləşən qrifon tipli geoloji strukturlarda daha bir neçə palçıq vulkanı yaranıb.

### QORUQLARA GƏLƏN XARİCİ TURİSTLƏRİN PAYI ON FAİZ ARTIB

M.Ağabəyli bildirib ki, bu ilin yanvar-sentyabr aylarında DTA Qoruqları İdarəetmə Mərkəzinin tabeliyində olan qoruq və mədəniyyət müəssisələrini ümumilikdə 706494 nəfər ziyarət edib. Onun sözlərinə görə, ziyarətçi sayı ötən ilin 9 ayı ilə müqayisədə 25,71% artıb: "Ümumilikdə 547323 nəfər (77,47%) xarici, 159171 nəfər (22,53%) isə yerli turistlərdir. Qoruq və mədəniyyət müəssisələrinə gələnlər arasında xarici vətəndaşların payı əvvəlki illə müqayisədə 10% çoxdur".

M.Ağabəyli əlavə edib ki, hesabat dövründə "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunu ümumilikdə 226434 nəfər ziyarət edib. Onlardan 204078-i (90,13%) xarici, 22356-sı (9,87%) isə yerli turist olub. Onun sözlərinə görə, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunu eyni dövrdə 198167 nəfər ziyarət edib. Ziyarətçilərin 181238-i (91,46%) xarici, 16929-u (8,54%) isə yerli turistdir.

M.Ağabəyli bildirib ki, "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğuna 140691 nəfər baş çəkib. Onların 69675-i (49,53%) xarici, 71016-sı (50,47%) isə yerli turist olub. O qeyd edib ki, Palçıq Vulkanları Turizm Kompleksini 42 736 nəfər ziyarət edib. Onlardan 38 090-ı (89,12%) xarici, 4646-sı (10,88%) isə yerli turistdir.

M.Ağabəylinin sözlərinə görə, "Kiş" Tarix-Memarlıq Qoruğunu 37645 nəfər ziyarət edib. Bu rəqəmin 18 395-i (48,86%) xarici, 19250-si (51,14%) isə yerli turistlərdir.

Sədrin sözlərinə görə, bu ilin yanvar-sentyabr aylarında DTA-nın Qoruqları İdarəetmə Mərkəzinin tabeliyində olan qoruqlarda bilet satışından 4,8 milyon manatdan çox gəlir əldə edilib. Əldə olunan gəlir ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 10% artıb. "Bu vəsait tam şəkildə qoruqların inkişafına, infrastrukturun yenilənməsinə və xidmət keyfiyyətinin artırılmasına yönəldilir", – deyə M. Ağabəyli əlavə edib.

### KİŞ MƏSCİDİNDƏKİ İŞLƏR GƏLƏN İL YEKUNLAŞACAQ

M.Ağabəyli bildirib ki, Şəki şəhərinin Kiş kəndində yerləşən qədim məsciddə aparılan təmir-bərpa işlərinin gələn il yekunlaşdırılması planlaşdırılır. Onun sözlərinə görə, məscidin bərpasına ötən il start verilib və işlər mərhələli şəkildə davam etdirilir: "Layihə çərçivəsində tarixi məscidin orijinal memarlıq üslubu qorunmaqla bərpa işləri aparılır, eyni zamanda ərazidə turizm infrastrukturu da təkmilləşdirilir. Məqsəd gələcəkdə Kiş qoruğuna gələn turistlərin bu unikal abidəni daha rahat şəkildə ziyarət etməsini təmin etməkdir".



**Foto:** Tapdıq Abdullayev - Global Photostock




## SOCAR-IN TƏŞKİLATÇILIĞI İLƏ FORUM KEÇİRİLİB

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) təşkilatçılığı ilə ilk Hüquq və Uyğunluq Forumu keçirilib. "Report" şirkətə istinadən xəbər verir ki, SOCAR Qrupun müxtəlif ölkələrdə fəaliyyət göstərən hüquq və uyğunluq üzrə mütəxəssislərinin, habelə aparıcı beynəlxalq hüquq şirkətlərinin nümayəndələrinin iştirakı ilə keçirilən Forum bilik və təcrübə mübadiləsi aparmaq, bu xüsusda yeni yaranan hüquqi riskləri müzakirə etmək məqsədi daşıyıb.

Hüquq və Uyğunluq Forumu çərçivəsində "Beynəlxalq arbitraj mübahisələri", "Korrupsiya və qlobal enerji sektoru", "Biznes mühitində hüquqi çətinliklər" mövzularında panel müzakirələri aparılıb.

Müzakirələrdə digər ölkələrdə çalışan SOCAR Qrup müəssisələri arasında vahid komanda ruhunun gücləndirilməsi və sürətlə dəyişən qlobal mühitin çağırışlarına cavab vermək üçün əməkdaşlıq prinsiplərinin mühüm əhəmiyyətə malik olduğu qeyd edilib.

Tədbirdə SOCAR-ın Qrup üzrə fəaliyyətində uyğunluq mədəniyyətinin təbliği çərçivəsində hüquqi tələblər, etik dəyərlər, şəffaflıq və ən yüksək idarəetmə standartlarını rəhbər tutduğu bir daha vurğulanıb. SOCAR tərəfindən bu cür hüquq və uyğunluq forumlarının illik əsaslarla keçirilməsi planlaşdırılır.




Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2238
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# BU SAHƏLƏR DAHA ÇOX GƏLİR GƏTİRƏCƏK

Növbəti beş ildə iqtisadi inkişafın əsas hədəfləri idxalın əvəzlənməsi ilə bağlı olacaq. Emaledici qida sənayesinin daha da inkişaf etdiriləcəyi gözlənilir. Yüngül sənayedə də üstünlüklər olacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az





Azərbaycan şirkətləri yaxın beş ildə tikinti və xammal sektorunun, o cümlədən nəqliyyat və logistika sahələrinin daha çox böyüyəcəyini proqnozlaşdırır. Bu barədə "Azərbaycanda biznes perspektivləri" adlı makroiqtisadi hesabatın doqquzuncu buraxılışındakı "Biznes etimadı sorğusu"nda qeyd edilib. Sorğunun nəticələrinə görə, şirkətlər yaxın beş ildə Azərbaycanda ən sürətli inkişafın tikinti və xammal sektorunda (20%), eləcə də nəqliyyat və logistika sahələrində (20%) olacağını proqnozlaşdırır. Bu proqnozlar real iqtisadi trendlərlə nə dərəcədə üst-üstə düşür? Növbəti beş ildə ölkədə daha çox hansı sahələrin inkişaf edəcəyi gözlənilir?

### "EMALEDİCİ QİDA SƏNAYESİ VƏ YÜNGÜL SƏNAYE İNKİŞAF EDƏCƏK"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, növbəti beş ildə əsas hədəflər idxalın əvəzlənməsi ilə bağlı olacaq: "Çünki məqsəd yerli istehsalın genişləndirilməsidir. Bu, həm qiymətlərin optimallaşdırılması, həm də valyutanın ölkədə qalması baxımından vacibdir. Emaledici qida sənayesinin daha da inkişaf etdiriləcəyi gözlənilir. Yüngül sənayedə də üstünlüklər mövcuddur. Bu sahələr növbəti beş ildə əsas prioritetlər siyahısındadır".

### "NƏQLİYYAT-LOGİSTİKA SAHƏSİNDƏ GƏLİRLƏR ARTACAQ"

V.Bayramovun fikrincə, növbəti beş ildə inkişaf edəcək sektrolardan biri də nəqliyyat-logistikadır: "Çünki bir tərəfdən Orta Dəhlizin imkanları genişlənir, digər tərəfdən Azərbaycan və Qazaxıstan bu istiqamətdə kifayət qədər geniş miqyaslı əməkdaşlıq nümayiş etdirir. Bu da nəqliyyat və logistikanın inkişafına ciddi şərait yaradacaq. Ona görə gözlənilir ki, Azərbaycan növbəti beş ildə nəqliyyat və logistika sahəsindən daha çox gəlir əldə etmək imkanı qazanacaq. Bu da iqtisadi artıma təsirsiz ötüşməyəcək. İqtisadiyyatı inkişaf etdirən digər amillər infrastrukturun inkişaf etdirilməsi, elektronlaşmadır. Bütün bunlarla yanaşı geosiyasi vəziyyət və regiondakı yeni düzən də Azərbaycan üçün yeni imkanlar yaradır. Qarabağ münaqişəsinin həlli regiona daha çox sərmayənin cəlb edilməsi, daha çox yüklərin daşınması baxımından da vacibdir. Dövlət siyasəti islahatların dərinləşməsi istiqamətindədir. Nəqliyyat və logistika, qeyri-neft sektorunun inkişafı üçün daha çox sərmayənin cəlb olunması üçün işlər növbəti beş ildə daha da artacaq. Qeyri-neft sektorunun inkişafı əsas hədəflərdəndir".



Vüqar Bayramov

Foto: Firudin Səlimov
Global Photostock

## YAŞIL ENERJİ SAHƏSİ DƏ DİQQƏTDƏDİR

İqtisadçı Elçin Əkbərov bildirdi ki, proqnozlar real mənzərəni əks etdirir: "Mən bu siyahıya alternativ enerji sektorunu da əlavə etmək istərdim. Son illər bu sektora ciddi xarici investisiyalar cəlb edilir və bu, hazırda da davam edir. Növbəti beş il ərzində azı yeddi QVt yaşıl enerji gücləri istifadə oluna biləcək və bunun 70 faizindən çoxu ixraca yönəldiləcək. Bu məqsədlə hazırda Avropaya müxtəlif marşrutlarla enerji təchizatının yeni xəritəsi tərtib edilir".

E.Əkbərov digər inkişaf edəcək sahələrə də toxundu: "İnşaat sektorunun inkişafının davam etməsi qaçılmaz prosesdir və fikrimcə, inşaat sektorunun xüsusi çəkisində qeyri-yaşayış, emal, istehsalat, soyuducu anbar kompleksi yönümlü tikintilər artacaq. Xammal sektoru ilə yanaşı emal və istehsalat sektorları da inkişaf edəcək, çünki ölkəmizdə böyük həcmlərdə aqrar məhsul yetişdirilir və çox az hissəsi emal olunaraq satışa çıxarılır və ya ixrac olunur. Bu da məhsulun saxlanma müddətini azaldır və uzun yol qət etməsini çətinləşdirir. Ancaq emal və istehsalat sektorlarının inkişafı ilə bu problemlər aradan qaldırılacaq və ölkəmiz daha çox əlavə dəyər yarada bilən məhsullar ilə dünya bazarında payını artıracaq. Nəqliyyat sektorunun inkişafı qaçılmazdır, bunu dəmir yolları və gəmi-bərə daşımaları nümunəsində real olaraq görürük".

## DÖVLƏTİN DƏSTƏYİ VACİBDİR

Ekspertin fikrincə, bu sahələrin inkişafı üçün müəyyən işlər görülməlidir: "Biznesə başlama müddətinin qısa, xərclərinin minimal olması, xidmətlərin maksimal elektronlaşması texniki baxımdan prosesləri sürətləndirib. Ancaq Qarabağın demək olar ki, sıfırdan bərpası, yenidən qurulması, regional kommunikasiyaların maksimal açılması ilə tranzit yükdaşımaların artması və ölkədən daha çox sərnişin və yük keçidi, vergi və gömrük stimullaşdırıcı tədbirləri, ixrac imkanlarının genişlənməsi və qeyri-neft sektoruna diqqət və marağın artması inkişafa gətirib çıxaracaq".

E.Əkbərov inkişaf edən sahələrə dövlət dəstəyinin vacibliyindən də bəhs etdi: "Dövlət dəstəyini regional, sektoral və ərazi üzrə qruplaşdırmaq olar. Regional olaraq Qarabağ ərazisində bizneslərə 10 illik vergi güzəştləri verilir. Sektoral və regional əsasda yanaşsaq, investisiya təşviqi sənədi, aqrar subsidiyalar, həmçinin sənaye parkları və sənaye məhəllələri ciddi dəstəklər təklif edir. Sektoral baxımdan dəstəklərin hamısı qeyri-neft sektoruna və xüsusilə aqrar, istehsalat sektorlarına yönəlib".



Elçin Əkbərov

HAZIRDA BAKIDA EVLƏRİNİ KİRAYƏ VERƏNLƏRİN TƏXMİNƏN 80 FAİZİ VERGİDƏN YAYINIR

# KİRAYƏ BAZARINDA YENİ DÖVR




Daşınmaz əmlakını yüksək qiymətə kirayə verənlərin təxminən 70 faizi artıq müqavilə imzalayır. Qeyri-yaşayış obyekti sahibləri ilə də icarə müqavilələri əksər hallarda məsuliyyət və tənzimləmə səbəbi ilə bağlanır. Amma aylıq kirayə haqqı təxminən 600-700 manat olan, dəyəri nisbətən aşağı mənzillərin sahibləri çox vaxt müqavilə bağlamırlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda kirayə bazarında yeni dövr başlayır. 2026-cı il dövlət büdcəsi haqqında qanun layihəsinə əsasən, fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulacaq. Məlumdur ki, kirayə mənzil bazarında 14 faizlik vergi tətbiq olunsa da, vergidən yayınmaq üçün rəsmi qaydada kirayə müqaviləsi imzalayanlar demək olar ki, yox idi. Bəs növbəti ildən bu sistem necə işləyəcək? Gələn ildən kirayə müqavilələri necə tənzimlənəcək?

### "14 FAİZLİK VERGİ DƏRƏCƏSİ KİFAYƏT QƏDƏR YÜKSƏK İDİ"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, iqtisadçı-ekspert Vüqar Oruc bildirir ki, əvvəlki 14 faizlik vergi dərəcəsi kifayət qədər yüksək idi və vətəndaşlar vergidən yayınırdılar: "Çünki həmin məbləğ ümumi kirayə haqqına əlavə olunduqda ciddi fərq yaranırdı. Məsələn, bir mənzil 600 manata kirayə verilirsə və mülkiyyətçi 14 faiz vergi tələb edirsə, bu, təxminən 84 manat edir. Bu zaman qiymət fərqi tərəflər arasında razılaşmanı çətinləşdirir, nəticədə onlar qeyri-rəsmi razılaşma yolu ilə vergidən yayınmağa üstünlük verirlər. Biz təklif etmişdik ki, bu vergi ən azı iki dəfə azaldılsın. İndi dörd faizlik güzəşt tətbiq olunur. Bu, azalma həm icarəçini, həm də icarə verəni rəsmi şəkildə müqavilə bağlamağa müəyyən qədər təşviq edə bilər".

### "YÜKSƏK VERGİLƏR YAYINMA RİSKİNİ ARTIRIR"

Mütəxəssis bildirir ki, hazırda evlərini kirayə verənlərin təxminən 80 faizi vergidən yayınır: "Bu isə ciddi problemlərə səbəb olur. Münasibətlər rəsmi qaydada tənzimlənmir və tərəflər öz hüquqlarını səmərəli şəkildə müdafiə edə bilmirlər. Məsələn, gələcəkdə hər hansı problem yarandıqda, ortada notarial qaydada təsdiqlənmiş müqavilə olmadığından hüquqi əsas yox olur. İndiki halda tərəflər yalnız "qeyri-rəsmi", hüquqi əsası olmayan müqavilə bağlayırlar ki, bu da hüquqi qüvvəyə malik olmayan sənəddir. Belə müqavilələr çox vaxt vergidən yayınmaq məqsədilə tərtib olunur. Guya burada ödəniş məbləği, əşyalı və ya əşyasız olması göstərilir, amma bunlar formal xarakter daşıyır. Nəticədə kirayəçi və kirayə verən öz hüquqlarını tələb edə bilmir. Bu vergi müəyyən dərəcədə rəsmi qeydiyyatı artıracaq, amma tam şəkildə yox. Faizlərin bir qədər daha aşağı salınması məqsədəuyğundur və bu, vergi öhdəliyinə əməl etmə vərdişini gücləndirə bilər. Vergi dəyişiklikləri əsasən insanların ödəmə imkanlarını nəzərə almalı, faizləri aşağı səviyyədə saxlamalı, eyni zamanda geniş kütləyə tətbiq edilməlidir. Yüksək vergilər isə vergidən yayınma riskini artırır".




## "ƏSAS HƏDƏF NOTARİAL QAYDADA MÜQAVİLƏNİN BƏRPASIDIR"

Vergi mütəxəssisi Mahmud Abasquliyev bildirir ki, hazırda vergi ödənişlərinin nağdsız və ya nağd tənzimlənməsi formalaşmayıb: "Vergilərin 14 faizdən 10 faizə endirilməsinin əsas məqsədi vətəndaşların kirayə mənzil verərkən rəsmiləşdirməyə maraqlı olmalarıdır. Yəni, notarial qaydada müqavilə bağlansın və kirayəçi ödənişi həmin vətəndaşa həyata keçirsin. Əsas hədəf notarial qaydada müqavilənin bərpasıdır. Müqavilə bərpa olunduqdan sonra, ödəniş edən və ya kirayə verən vətəndaş Dövlət Vergi Xidmətinə yaxınlaşaraq qeydiyyatdan keçəcək və avtomatik olaraq, müvafiq fəaliyyət koduna uyğun ödənişini həyata keçirə biləcək".




### NƏZARƏT KİMDƏ OLACAQ?

Nəzarət mexanizmlərinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, hazırda bunun nəzarəti üçün Vergi Xidmətinin imkanları məhduddur, çünki vergi ödəyicilərinin sayı çoxdur və onların izlənilməsi çətin olar: "Bu səbəbdən, ilkin mərhələdə nəzarət funksiyası bələdiyyələrə, mənzil-kommunal idarələrinə və hətta hüquq-mühafizə orqanlarına həvalə oluna bilər. Gələcəkdə isə bu mexanizmin tam tətbiqi və hüquqi qüvvəsinin təsdiqi ilə proses daha səmərəli olacaq".

## "ƏMLAKINI YÜKSƏK QİYMƏTƏ KİRAYƏ VERƏNLƏR..."

Əmlak eksperti Ramil Qasımzadə deyir ki, kirayə bazarında verginin 14 faizdən 10 faizə endirilməsi müsbət addımdır. Mütəxəssisin sözlərinə görə, gələcəkdə də hökumət həm kirayə verənlər, həm də kirayə götürənlər üçün stimullaşdırıcı addımlar ata bilər: "Fakt odur ki, daşınmaz əmlakını yüksək qiymətə kirayə verənlərin təxminən 70 faizi artıq müqavilə bağlayır. Qeyri-yaşayış obyektləri ilə də bağlı icarə müqavilələri əksər hallarda məsuliyyət və tənzimləmə səbəbi ilə bağlanır. Amma aylıq kirayə haqqı təxminən 600-700 manat olan, dəyəri nisbətən aşağı mənzillərin sahibləri çox vaxt müqavilə bağlamırlar. Burada həm kirayə verən, həm də kirayə götürən müqavilə bağlamağa həvəsli olmurlar. Halbuki bu müqavilə gələcəkdə yaranacaq problemlərin məhkəmə müstəvisində həlli üçün əsas hüquqi sənəd rolunu oynayır".

### NOTARİAL QAYDADA RƏSMİLƏŞDİRİLƏN BİR KİRAYƏ MÜQAVİLƏSİNİN XƏRCİ

Mütəxəssis vurğulayır ki, müqavilənin rəsmiləşdirilməsi xərc tələb etdiyi üçün bir çox hallarda tərəflər bu addımı atmırlar: "Notarial qaydada rəsmiləşdirilən bir kirayə müqaviləsinin xərci bir il üçün təxminən 120-180 manat təşkil edir. Həm ev sahibi, həm də kirayəçi sənədlər üçün əlavə xərc çəkir. Əgər kirayə götürən hüquq-mühafizə orqanının əməkdaşıdırsa və ya iş üçün tələb olunursa, müqavilə bağlanır. Lakin əksər hallarda vətəndaşlar notarial qaydada müraciət etmədən, öz aralarında sadə müqavilə bağlayırlar. Bəzi hallarda rieltorlar prosesi həyata keçirir, amma notarial qaydada rəsmiləşmə olmur və nəticədə vergidən yayınma baş verir".



# TAM NƏZARƏT VƏTƏNDAŞDA OLACAQ

Hazırda vətəndaşın fərdi məlumatlarının istifadəsinə nəzarət mexanizmi əsasən özəl sektorun - banklar, sığorta şirkətləri, mobil operatorlar və digər kommersiya qurumlarının sorğularına şamil olunur. Gələcəkdə isə bu sistem dövlət qurumlarının məlumat sorğularına da tətbiq ediləcək.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Gələn ildən etibarən Azərbaycan vətəndaşları şəxsi məlumatlarının istifadəsinə daha şəffaf və nəzarətli şəkildə baxa biləcəklər. Rəqəmsal islahatların yeni mərhələsi çərçivəsində vətəndaşlar "mygov" platforması üzərindən onların məlumatlarına kimin, nə zaman və hansı məqsədlə daxil olduğunu izləyə, həmçinin bu prosesə razılıq verə və ya qadağa qoya biləcəklər. Bu barədə Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (IRIA) sədr müavini Şahin Əliyev "Kritik İnfrastrukturun Müdafiə Yarışı" (CIDC-2025) tədbiri çərçivəsində keçirilən konfransda məlumat verib. Bəs yeniliklər vətəndaşa nə verəcək?

### "MƏQSƏD VƏTƏNDAŞLARA TAM İDARƏETMƏ İMKANI YARATMAQDIR"

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən sorğumuza cavab olaraq bildirildi ki, bununla Azərbaycan vətəndaşları fərdi məlumatlarının istifadəsinə nəzarət imkanı əldə edirlər. Bu funksionallıq "mygov" platforması vasitəsilə təqdim olunur və məqsəd vətəndaşlara öz məlumatlarının paylaşılması və istifadəsi üzərində tam idarəetmə imkanı yaratmaqdır: "mygov" platforması vətəndaşlara məlumat paylaşımı və istifadəsini izləmək imkanı təqdim edir. Vətəndaşlar "mygov"da dövlət və özəl müəssisələrlə paylaşdıqları məlumatları "Paylaşılan məlumatlarım" bölməsində görə bilirlər. Bu bölmə vasitəsilə paylaşılan məlumatların tarixçəsi, hansı qurum və müəssisə ilə, eləcə də nə zaman paylaşma aparıldığı barədə tam məlumat əldə etmək mümkündür. Vətəndaşlar "icazələrin idarə edilməsi" bölməsində özəl şirkətlər tərəfindən aparılan məlumat sorğularını izləyə, verdikləri razılıqları idarə edə, bu razılıqların qüvvədə qalma müddətini təyin edə, istədikdə onları dayandıra və ya yenidən aktivləşdirə bilirlər. Sorğulama baş verdiyi anda sistem avtomatik olaraq "mygov" tətbiqi vasitəsilə vətəndaşa bildiriş göndərir. Əgər vətəndaş sorğulamanı təsdiq etmək istəmirsə, eyni bölmədən icazəni ləğv edə bilir. İlin sonuna qədər vətəndaşlar yalnız ilkin sorğular deyil, həm də bağladıqları icazələr üzrə təkrar sorğulama cəhdlərinə dair bildirişlər də alacaqlar".




### Dövlət qurumlarına da tətbiqi gündəmdədir

Qurumdan bildirildi ki, hazırda bu imkan əsasən özəl sektor qurumlarının sorğulama proseslərinə şamil olunur. Gələcəkdə isə sistemin dövlət qurumlarının məlumat sorğularına da tətbiqi nəzərdə tutulur: "Bu mərhələdə vətəndaşlara platforma üzərindən dövlət tərəfindən sorğulanan məlumatlarla bağlı informativ xarakterli bildirişlər təqdim ediləcək. Yəni dövlət qurumları üçün "icazələrin idarə olunması" deyil, artıq həyata keçirilmiş sorğular barədə məlumatlandırma mexanizmi fəaliyyət göstərəcək. Bu istiqamətdə işlər görülür və gələn ildən etibarən funksionallıq vətəndaşlara təqdim olunacaq. "mygov" tətbiqindəki "icazələrin idarə edilməsi" bölməsində məlumatlar aydın şəkildə kateqoriyalara ayrılıb və hər bir kateqoriyanın izahı təqdim olunub ki, vətəndaş sorğulanan məlumatın növü və məqsədi barədə məlumatlı olsun. Hazırkı mərhələdə məlumat sorğularını həyata keçirən tərəflər əsasən özəl şirkətlərdir və onlar bu prosesi yalnız vətəndaşın yazılı və ya rəqəmsal razılığı əsasında həyata keçirə bilirlər.

Özəl sektorun, o cümlədən banklar, sığorta şirkətləri, mobil operatorlar və digər kommersiya qurumlarının sistemə inteqrasiyası mərhələli şəkildə aparılır. Artıq bir sıra qurumlar "Digital Finans" sistemi vasitəsilə platformaya qoşulub. Nəticədə vətəndaşlar bu qurumlar tərəfindən həyata keçirilən məlumat sorğuları barədə real vaxt rejimində "mygov" mobil tətbiqi üzərindən məlumat əldə edirlər".

### "Hüquq-mühafizə orqanları məlumatlara çıxış tələb edə bilərlər"

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti Bəhruz Əliyevin sözlərinə görə, belə bir modelin reallaşması üçün sistem və hüquqi baza birlikdə addımlamalıdır: "mygov" portalı vətəndaşların hansı qurumlara, hansı məlumatların verilməsinə razılıq verdiyini izləyə və bu razılığı zamanla idarə edə bilmək imkanı nəzərdə tutur. Məsələn, vətəndaşlar öz razılıqlarına müəyyən limit qoya biləcəklər. Hansı ki, hazırda da "mygov"da vətəndaşların məlumatlarına çatmaq istəyənlərin siyahısına baxmaq və onlara məhdudiyyət qoymaq imkanı vətəndaşa verilib. Vətəndaş özünə aid fərdi məlumatları "mygov" şəxsi kabinetindən görə bilər. Hansı qurumun, onun hansı məlumatlarına çıxış verildiyini izləyə və razılığı ləğv edə bilər. Portal üzərindən yanlış və ya köhnəlmiş məlumatların düzəldilməsi üçün müvafiq quruma müraciət imkanı da var və inkişaf etdirilməsi gözlənilir. Məlumatlarda dəyişikliklər, qurumların sorğuları və s. barədə xəbərdarlıqlar (SMS, e-mail, mobil tətbiq, portal bildirişi) almaq arzu etdiyim və gözlədiyim funksiyalardandır. Beləliklə, sistemin inkişafı ilə, vətəndaşlar öz məlumatları üzərində nəzarət imkanlarını daha aktiv şəkildə həyata keçirə biləcəyini gözləmək olar".

B.Əliyevin fikrincə, hüquq-mühafizə orqanları cinayət işi, istintaq, məhkəmə tələbi kimi məlumatlara çıxış tələb edə bilərlər: "Bu hallarda da hüquqi nəzarət və şəffaflıq üçün, çıxışın hansı səbəblə, kim tərəfindən və hansı vaxtda edildiyi barədə iz (audit logları) saxlanılması beynəlxalq təcrübədə mövcuddur".


Bəhruz Əliyev

Ekspert bildirdi ki, bildiriş mexanizmi hazırda da mövcuddur. Amma bu mexanizmlərin çoxalması və seçim imkanının verilməsi təqdirəlayiq addım olardı: "Təklif üçün deyərdim ki, SMS - vacib xəbərlər üçün, e-mail (elektron poçt) - daha detallı məlumatlar, Tətbiq push notification — mobil tətbiqdə aktiv ola bilər. Lakin yüz faizlik təhlükəsizlik olmadığı qənaətindəyəm".

# KİTABLARLA SAĞALMAQ MÜMKÜNDÜRMÜ?

Ədəbiyyat ruhun dilidir. Psixoloji yaraların sağalması üçün bəzən nə dərman, nə də məsləhət yetərli olur. İnsan sadəcə hislərinə güzgü tutulmasını istəyir. Ədəbiyyat da bunu edir – səssiz, lakin çox dərin bir şəkildə.

XANIM AYDIN

İnsan ruhu zaman-zaman qaranlığa bürünür. Daxili boşluqlar, keçmişin ağrıları, gələcək narahatlıqları və həyatın amansız ritmi psixoloji tarazlığı pozur. Belə anlarda bəzi insanlar musiqiyə, bəziləri təbiətə, bəziləri isə kitablara sığınır. Bəs kitablar sadəcə əyləncə və ya məlumat mənbəyi deyil, eyni zamanda bir "şəfa vasitəsi" ola bilərmi? Bu sual bizi ədəbiyyat terapiyası adlı unikal və getdikcə daha çox diqqət qazanan bir sahəyə aparır.

### ƏDƏBİYYAT TERAPİYASI NƏDİR?

Ədəbiyyat terapiyası - insanın emosional və psixoloji problemlərini müalicə etmək məqsədilə ədəbiyyatdan istifadə olunan bir terapiya növüdür. Burada məqsəd insanların kitablar vasitəsilə öz hislərini tanıması, anlaması və ifadə etməsidir. Bu terapiya fərdi və ya qrup şəklində aparıla bilər. Peşəkar psixoterapevt və ya biblio-terapevt tərəfindən yönləndirilir.

Kitablar insanın daxili dünyasına pəncərə açır. Onlar yaşanmış və yaşana biləcək hislərin, mübarizələrin, itkilərin, sevinclərin daşıyıcılarıdır. Bir romandakı qəhrəman bəzən bizim yaşadığımız ağrını, qorxunu, həsrəti yaşayır və bu zaman biz tək olmadığımızı anlayırıq. Empatiya qururuq, anlayırıq, qəbul edirik.

### MÜTALİƏ ZAMANI NƏ BAŞ VERİR?

Oxucu personajlarla emosional bağ quraraq özünü dünyada tək hiss etmir. Nəticədə tənhalıq duyğusu azalır. Bəzən kitabdakı bir dialoq və ya təsvir insanın öz duyğularını anlamağa səbəb olur. Bunun nəticəsində isə insan özünü anlamağa başlayır. Daha sonra duyğuların emalı prosesi başlayır: Hiss edilən, lakin izah edilə bilməyən duyğular kitab vasitəsilə "şifrələnir". Xoş sonluq və ya qəhrəmanın inkişafı oxucuda ümid yaradır. Ədəbiyyat terapiyasının yalnız oxumaqla deyil, yazmaqla da əlaqəli olması onun gücünü artırır. İnsan öz düşüncələrini, xatirələrini, xəyallarını kağıza tökdükcə onları daha obyektiv görməyə başlayır. Bu, həm bir növ "ruhi rahatlanma", həm də daxili səsin tanınması prosesidir. Necə deyərlər, əgər içindəki hekayəni danışmasan, o, səni susduracaq.

### RUHUN SIĞINACAĞI

Ədəbiyyatşünas Mətanət Vahid deyir ki, illər öncə "Ədəbiyyat - alternativ dünyadır" yazarkən, əsasən, özünün və çevrəsindəki insanların təcrübəsindən çıxış etmişdi: "Bütün susduqlarını bədii mətnlərdə tapmaq, onlarla dialoqa girmək, həmsöhbət olmaq ayrı dünya gerçəklərinə sığınmaq deməkdir. Bəli, bu mənada, ümumiyyətlə sənət, o cümlədən ədəbiyyat terapiyadır. Burada məsələ bədii mətndə nəyi aradığından və necə oxumaqdan çox asılıdır: kitabda sadəcə yeni informasiya və ya öz oturuşmuş fikirlərinin təsdiqini arayırsan? Yoxsa qarşında sənə tanış olmayan, tamamilə yeni suallara veriləcək cavablara hazırsan? Fikir versək, yaxşı oxucular əksər hallarda özləri də sonradan yazmağa meyillənirlər - üzə çıxarsalar da, çıxarmasalar da. Yazıçı üçün yazmaq, ilk növbədə, mənəvi ehtiyacını təmin etməkdir, yaxşı oxucu üçün də mütaliə ehtiyacdır - mənəvi doymaqdır. Musiqi dinləmək, film izləmək, rəsmlərə, heykəllərə baxmaq, bədii ədəbiyyat oxumaq - hamısı ruhun ehtiyacıdır, dolayısı ilə terapiyadır. Burada bir möcüzə-filan aramağa gərək yoxdur. Psixologiyada "biblioterapiya" sahəsinə görə, terapevtlər müəyyən vəziyyətlərdə çətin suallara cavab tapmaq, doğru qərar vermək məqsədilə pasiyentə konkret əsərlər oxumağı tövsiyə edirlər. Onsuz da psixologiya insanı dəyişmir, özünə tanış olmayan tərəflərini özünə tanıtmağa dəstək olur - biblioterapiya da bu dəstəyin vasitələrindən biridir".



### "DƏRMANLA SAĞALMAYANI BİR SÖZLƏ SAĞALTMAQ OLAR"

Şair, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəs də ədəbiyyat terapiyasına inanır: "Dünyada ən çox oxunan 10 kitabın siyahısına rast gəlmişdim. Ürəyim ağrımışdı. Ən çox oxunan kitabların siyahısında birinci yerdə "Qurani-Kərim" idi. Çox təəssüf hisi ilə bildirmək istəyirəm ki, qalan doqquz kitab da bədii ədəbiyyat deyildi. Onlar arasında bədii ədəbiyyata bir az yaxın olan ancaq Freydin bir kitabı vardı. Qalanları əsasən siyasi, dini, iqtisadi ədəbiyyat idi. Ədəbiyyatdan danışanda bizə elə gəlir ki, insan birinci poeziyaya, prozaya köklənməldir. Halbuki ədəbiyyat palitra etibarı ilə çoxşaxəlidir. Texniki, iqtisadi, siyasi, tibbi və s. ədəbiyyat da var axı. Amma terapiya üçün düşünürəm ki, ilk onluqda olmayan bədii ədəbiyyat başda gəlməlidir. Yəni heç bir kimyagərin dərmanla sağalda bilmədiyi bir xəstəliyi çox asanlıqla, bir sözlə, bir fikirlə sağaltmaq olar. Məsələn, Çarlz Bukovski deyirdi ki, dostsansa yanımda, düşmənsənsə qarşımda, ortada fırlanacaqsansa, məndən kənarda dur. Çox kiçik bir deyimdə fizika da, metafizika da, siyasət də, iqtisadiyyat da, elə sizin axtardığınız terapiya da var".

### BİZİ BİZƏ QAYTARIR

Ədəbiyyat ruhun dilidir. Psixoloji yaraların sağalması üçün bəzən nə dərman, nə də məsləhət yetərli olur. İnsan sadəcə anlaşılmasını və hislərinə güzgü tutulmasını istəyir. Ədəbiyyat da bunu edir - səssiz, lakin çox dərin bir şəkildə.

Ədəbiyyat terapiyası bizə göstərir ki, kitablar sadəcə kağız və mürəkkəb deyil, bir növ psixoloji güzgüdür. Onlar bizi bizə qaytarır, parçalanmış duyğuları birləşdirir və bəzən heç kimin bacarmadığı şəkildə sağaldır.

# İKİ ÖLKƏNİN KÖRPÜSÜNƏ ÇEVRİLƏN MÖCÜZƏ

Niaqara şəlaləsi “Disneyland”, Notr-Dam kilsəsini və Böyük Çin səddini qabaqlayaraq dünyada beşinci ən məşhur turistik məkan kimi tanınır. Bu təbiət möcüzəsini seyr etmək planetin hər bir sakininin arzusudur.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Niaqara şəlaləsi - Niaqara çayı üzərində füsunkar şəlalələr kompleksidir. Bu, sadəcə coğrafi məkan deyil, təbiətin qüdrətinə və gözəlliyinə canlı sübutdur. Niaqara şəlaləsi Şimali Amerikanın ən məşhur simvollarından sayılır. Kompleksə “At nalı şəlaləsi”, “Amerika şəlaləsi” və “Gəlin nalı” şəlaləsi daxildir.

Niaqara şəlaləsi ABŞ-nin Nyu-York ştatını Kanadanın Ontario əyalətindən ayırır. Şəlalə iki ölkənin sərhədinə o qədər yaxındır ki, viza olacağı təqdirdə Niaqara çayı üzərindəki “Göy qurşağı” körpüsünü keçməklə, eləcə də köhnə kanat avtomobili olan “Whirlpool Aero Car”a minməklə sərhədi asanlıqla keçmək mümkündür. Kanada tərəfdən körpüyə daxil olanda ABŞ gömrüyündən keçir, 1 dollar ödəyir və irəliləyirsən. Və dərhal gözəllik başlayır...

## HƏR İKİ ÖLKƏYƏ ELEKTRİK ENERJİSİ MƏNBƏYİ

Şəlalənin Kanadadan görünən mənzərəsi daha möhtəşəmdir. Amerikalılar ərazidəki qülləyə çıxmaqla şəlaləyə yandan tamaşa edə bilirlər. Mənzərəni daha əhatəli seyr etmək üçünsə çayda qayıq və ya gəmi turlarına çıxırlar.

Niaqara hər iki ölkəyə elektrik enerjisi mənbəyi kimi xidmət edir. Sərhədin hər iki tərəfindəki elektrik stansiyaları milyonlarla evi işıq və istiliklə təmin edir. Çayın sayəsində burada bir çox fabrik və zavodlar cəmləşib. “Əvvəlcə şəlaləyə gələnlər əsasən aristokratlar idi və ilk şərab evləri və qonaq evləri onlar üçün tikilmişdi. 19-cu əsrin birinci yarısında kanalların çəkilməsi ilə, daha sonra isə dəmir yollarının meydana gəlməsi ilə turizm daha əlçatan hala gəldi. Kanada sahillərində turizm daha intensiv inkişaf etdi - çoxsaylı otellər və suvenir mağazaları açıldı, ölkənin ilk muzeyləri yaradıldı. Amerika sahillərində sənaye inkişaf etməyə başladı, orada fabriklər və zavodlar tikildi və suyun gücündən su kanalları vasitəsilə istifadə edildi”, - deyə gəmi turunda öyrənirəm.

Qışda şəlalə ərazisindəki suyun bir hissəsi donaraq buz tağları və sütunlar əmələ gətirir. Bu tamaşa soyuqlara baxmayaraq, minlərlə fotoqrafı və turisti cəlb edir.

## HƏR İL 22 MİLYONDAN ÇOX TURİST CƏLB EDİR

Niaqara şəlaləsini seyr etmək planetin hər bir sakininin arzusudur. Dünyada ən çox ziyarət edilən şəlalədir. Bu təbiət möcüzəsi həmçinin “Disneyland”, Notr-Dam Katedrali və Böyük Çin səddini qabaqlayaraq dünyada beşinci ən məşhur turistik yerdir. İnsanlar bu inanılmaz mənzərəyə tamaşa etmək üçün dünyanın hər yerindən gəlirlər. Şəlalə hər il dünyanın hər yerindən 22 milyondan çox turisti cəlb edir. Bu payız həmin turistlərdən biri olmağın sevincini yaşamaq mənim də qismətimə düşdü.

## ŞƏLALƏDƏ BAYRAĞIMIZIN RƏNGLƏRİ

Niaqarada ağ suda raftinqdən tutmuş ziplininqə qədər müxtəlif fəaliyyətlər təklif edilir. Şəlalənin və ətraf kəndlərin valehedici mənzərələrini təqdim edən Skylon Qülləsinin müşahidə göyərtəsinə qalxa bilərsiniz. Axşam saatlarında Niaqara onların gözəlliyini vurğulayan canlı işıqlar sayəsində daha da mənzərəli olur. Çayda müntəzəm olaraq işıq şouları və atəşfəşanlıq keçirilir. Hər il 28 May Respublika Günündə şəlalə Kanadada yaşayan soydaşlarımızın sayı ilə Azərbaycan bayrağının rənglərinə bürünür. Soydaşlarımız bu mənzərənin nə qədər möhtəşəm olmasından fəxrlə danışırlar. “Kanadada yaşayan azərbaycanlıların çoxu həmin tarixdə Niaqaraya gəlir. Azərbaycan bayrağının rəngləri ilə işıqlanan şəlaləni izləmək bizdə qürur doğurur”, - deyə Kanadada yaşayan soydaşımız İsmayıl Məmmədov məlumat verir.


















## BAL AYININ SİMVOLU

19-cu əsrdə Niaqara bal ayının simvoluna çevrilib. Şimali Amerikanın hər yerindən yeni evlənənlər buraya gəliblər. Ənənə bu gün də davam edir. Niaqara şəlaləsi şairləri və rəssamları da ilhamlandırıb.

Şəlalə bir çox film və televiziya şousu üçün fon da olub. Romantik səhnələrdə, döyüş filmlərində və hətta cizgi filmlərində çəkilib.

Hazırda ziyarətçilər qayıq və gəmi turlarına çıxmaqla gurultulu sellərə yaxınlaşa bilirlər, amma şəlalənin üzərindən keçmək cəhdləri qanunla qadağandır. Mənbəyinə qədər gəmi turları inanılmaz təəssüratlar yaradır. Turistlər gəminin göyərtəsində islansalar belə bu möhtəşəmliyi yaxından seyr etməkdən vaz keçmirlər. Bu, insanın heç vaxt unuda bilməyəcəyi anlardır. Əvvəlcədən turistlərə dəyişik ayaqqabı və geyim götürmək təklif olunur. Çünki şəlalənin içərilərinə doğru irəlilədikcə islanmamaq mümkün deyil.

Daimi hərəkətə və səs-küyə baxmayaraq, şəlalənin yaxınlığında xüsusi bir sakitlik hissi var.

## 50 İLDƏN SONRA MÖVCUD OLMAMAQ TƏHLÜKƏSİ VAR

Şəlalənin yaxınlığında muzeylər, kazinolar, müşahidə qüllələri və əyləncə parkları ilə öyünən Niaqara şəhəri yerləşir. Öyrənirəm ki, bu şəhərin ərazisində 12 azərbaycanlı ailə məskunlaşıb. Ümumilikdə isə ərazidə yaşayanlar şərabçılıqla məşhurdurlar. Yol boyu üzüm sahələrini görmək olur. Turistlər üçün ərazidəki şərab zavoduna turlar da təşkil olunur. Yaxınlıqda yerləşən hotellərin gecəlik qiymətləri ucuz olmasa da, şəlalənin gurultusunu dinləmək və seyr etmək üçün insanlar bu şəhərdə tətil keçirməyi sevirlər. Şəhərdə Drakula qəsri, mum muzeyləri, Əyri ev və bir neçə kabuslu ev var. Bu kabuslu evlərin əksəriyyəti 70-ci illərə qayıdış kimidir. Uşaqlar üçün də bu şəhərdə çoxlu əyləncə məkanları təklif olunur.

Alimlər Niaqara şəlaləsinin təxminən 50 ildən sonra mövcudluğunu dayandıracağını proqnozlaşdırırlar.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
1 NOYABR ŞƏNBƏ 2025
www.kaspi.az



# GƏNC GÜLƏŞÇİLƏRİMİZDƏN UĞURLU NƏTİCƏ



**Azərbaycan həm fərdi, həm də komanda baxımından U-23 dünya çempionatının ən yaxşılarından idi. Novi Saddakı dünya çempionatı ölkəmizin güləş məktəbinin hər üç istiqamətdə güclü potensiala sahib olduğunu bir daha nümayiş etdirdi.**

Serbiyanın Novi Sad şəhərində güləş üzrə U-23 dünya çempionatı keçirildi. Azərbaycan pəhləvanları mundialda ölkəmizi layiqincə təmsil etməyi bacardılar. Yarışa yunan-Roma güləşçiləri start verdilər. Baş məşqçi Aleksandr Tarakanovun rəhbərliyi altında Elmir Əliyev, İlkin Qurbanov, Ziya Babaşov, Fəraim Mustafayev, Ruslan Nurullayev, Davud Məmmədov, Elmin Əliyev, Laçın Vəliyev, Əli Quliyev və Ayxan Mərdanov mübarizə apardılar.

Daha sonra qadın güləşçilər xalçaya çıxdılar. Baş məşqçi əvəzi Toğrul Əsgərovun rəhbərliyi altında Əsmər Cankurtaran, Elnurə Məmmədova, Gültəkin Şirinova, Nərgiz Səmədova, Günay Qurbanova, Birgül Soltanova və Ruzanna Məmmədova Azərbaycanı təmsil etdilər.

Yarışın son günlərində isə sərbəst güləşçilər mübarizəyə qoşuldular. Onların çıxışına baş məşqçi Xetaq Qazyumov rəhbərlik etdi. Komandanın heyətində Muhəmmədəli Əlizadə, Ceyhun Allahverdiyev, Ayxan Abdullazadə, Kənan Heybətov, Maqomed-Başir Xaniyev, Fərid Cabbarov, Ali Tsokayev, Sadiq Mustafazadə, Zəfər Əliyev və Xetaq Karsanov yer almışdılar.

### KLASSİKLƏRİMİZDƏN TARİXİ NƏTİCƏ

Azərbaycan yunan-Roma güləşçiləri Novi Sadda tarixi uğura imza atdılar. Pəhləvanlarımız iki qızıl və bir bürünc medal qazanaraq komanda hesabında üçüncü yeri tutdular. Bu nəticə Azərbaycan yunan-Roma güləşi tarixində indiyədək medal əyarına görə əldə olunmuş ən yüksək göstəricidir.

Klassiklərimizdən ilk medalı Ziya Babaşov qazandı. O, 63 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək finala yüksəldi. Həlledici görüşdə moldovalı Vitali Yeryomenkoya qarşı keçirdiyi qarşılaşmada Babaşov 6:3 hesabı ilə qələbə qazanaraq dünya çempionu tituluna sahib çıxdı. Daha sonra Elmir Əliyev də (55 kq) finala qədər irəlilədi və burada rusiyalı Alibek Amirov üzərində 3:2 hesablı qələbə qazanaraq ikinci qızıl medalı ölkəmizə gətirdi. Elmirin taktiki baxımdan yetkin və soyuqqanlı mübarizəsi ona dünya çempionu titulunu qazandırdı və Azərbaycan millisinin medal sayını artırdı. Daha sonra Ruslan Nurullayev 72 kq çəki dərəcəsində bürünc medal uğrunda qarşılaşmaya çıxdı. O, ermənistanlı Qaspar Terteryanı 3:1 hesabı ilə məğlub edərək yığmamızın hesabına daha bir medal əlavə etdi. Yekunda yunan-Roma güləşi üzrə millimiz 93 xalla komanda hesabında üçüncü pillədə qərarlaşdı. Komandamız yalnız İran (143 xal) və Ukrayna (96 xal) kimi güclü yığmalardan geri qaldı.

## Qurbanova fəxri kürsüdə

Son vaxtlar Azərbaycan qadın güləşi beynəlxalq arenalarda istənilən nəticələri verə bilmirdi. Bir çox yarışlarda təmsilçilərimiz ya erkən mərhələdə uduzur, ya da medal uğrunda mübarizədən kənarda qalırdılar. Novi Sadda bu mənzərə az da olsa dəyişdi. Yarış günü 18 yaşı tamam olan Günay Qurbanova (59 kq) öz ad gününü bürünc medalla qeyd etdi. Gənc və istedadlı güləşçi italiyalı Aurora Russoya "tuş"la qalib gələrək dünya üçüncüsü oldu və ölkəmizi medalsız qoymadı.

Günay Qurbanovanın bu uğuru qadın güləşində son zamanlarda davam edən durğunluğa son qoydu. Onun qələbəsi ilə sanki Azərbaycan qadın güləşi "şeytanın qıçını qırdı".

## Sərbəst güləşçilərimizdən bir dəst medal

Dünya çempionatının sonunda Azərbaycan sərbəst güləşçiləri uğurlu çıxışları ilə yadda qaldılar. Millimizin bir neçə üzvü Serbiyada Azərbaycan bayrağını ucaltmağı bacardı.

Kənan Heybətov 70 kiloqram çəki dərəcəsində finalda qızıl medal əldə etdi. Finalda pəhləvanımız iranlı Sina Xəlilini 9:4 hesabı ilə məğlub edərək qızıl medalı boynundan asdı. Komandamızın digər üzvü Xetaq Karsanov (125 kq) da finala qədər irəlilədi. O, həlledici qarşılaşmada iranlı Abolfazl Nejadla üz-üzə gəldi. Bu ildən etibarən ən ağır çəkidə çıxış etməyə başlayan Karsanov təcrübəli rəqibi qarşısında məğlub olaraq gümüş medal qazandı.

Daha sonra xalçaya çıxan Ali Tsokayev (86 kq) isə üçüncü yer uğrunda mübarizə apardı. Gürcüstanlı Tornike Samxaradze üzərində inamlı qələbə qazanan gənc idmançı bürünc medal əldə etdi.

Azərbaycan sərbəst güləş millisi mundialı bir dəst - bir qızıl, bir gümüş və bir bürünc medalla başa vurdu. Ümumilikdə 84 xal toplayan yığmamız komanda hesabında 4-cü yeri tutdu və üçüncü pillədə qərarlaşan Yaponiyadan cəmi 1 xal geri qaldı.

Beləliklə, Novi Sad şəhərində keçirilən U-23 dünya çempionatını Azərbaycan güləşi üçün uğurlu hesab etmək olar. Ümumilikdə Azərbaycan həm fərdi, həm də komanda baxımından dünya çempionatının ən yaxşılarından idi. Təəssüf ki, bəzi idmançılarımız son anda medaldan məhrum oldular. Novi Saddakı dünya çempionatı Azərbaycan güləş məktəbinin hər üç istiqamətdə güclü potensiala sahib olduğunu bir daha nümayiş etdirdi.